## Məcəlləyə dəyişiklik edilir

Azərbaycanda məhkumlar videogörüşlər keçirə biləcək



**Azərbaycanda məhkumlar karantin rejimləri dövründə videogörüşlər keçirə biləcək.**

Bununla bağlı Cəzaların İcrası Məcəlləsinə dəyişiklik edilir.

Dəyişikliklə sənəd məhkumlara videogörüşlər keçirmək hüququn verilməsini, epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə görüşlərə məhdudiyyət qoyulduğu hallarda məhkumun xahişi olduqda qısa müddətli görüşlər telefon danışıqları və videogörüşlərlə əvəz edilməsini nəzərdə tutur.

## Azərbaycan Avropaya qaz tədarükünü 40 faiz artıracaq



**Azərbaycan Avropaya qaz tədarükünü 40 faiz artıracaq.**

Bunu energetika naziri Pərviz Şahbazov Rumıniya Beynəlxalq Qaz Konfransında deyib.

"Əgər keçən il tədarükün həcmi 8,2 milyard kubmetr təşkil edirdisə, bu il tədarük 40 faiz artaraq, demək olar ki, 11,5 milyard kubmetrə çatacaq. Bu o deməkdir ki, biz təbii qazın nəqlini təmin etmək üçün mümkün olan hər şeyi edirik", - nazir əlavə edib.


❒ № 172 (5693), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 23 sentyabr 2022-ci il (cümə)




# 19 ildən sonra...

Cavanşir Quliyev birdəfəlik Azərbaycana köçdü

**Məşhur bəstəkar Cavanşir Quliyev 19 ildən sonra xaricdən Azərbaycana köçübCavanşir Quliyev Əməkdar incəsənət xadimi, məşhur bəstəkar Cavanşir Quliyev Şimali Kipr Türk Cümhuriyyətindən Azərbaycana köçüb.**

Bu barədə bəstəkarın özü məlumat verib. 19 ildir Şimali Kiprin Yakın Doğu Universitetində çalışan professor C.Quliyev bundan sonrakı həyat və yaradıcılığını yenidən doğma Vətəndə davam etdirmək qərarına gəlib.

(səh.2)



## Pandemiyanın sonuna doğru yaxınlaşırıq

Azərbaycan və Türkiyə səhiyyə nazirləri ortaq əlaqələri dəyərləndirdilər

**Türkiyənin Səhiyyə naziri Fahrettin Kocanın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana ikigünlük işgüzar səfəri başlayıb.**

Türkiyə səhiyyə nazirinin səfəri çərçivəsində "Azərbaycan-Türkiyə səhiyyə biznes forumu və sərgisi"ndə iştirak, Azərbaycan Səhiyyə Nazirliyində görüş, həmçinin Azərbaycan mədəniyyətinin incisi olan Şuşa şəhərinə ziyarət nəzərdə tutulub.

Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumu və sərgisinin açılış mərasimində çıxış edən Fahrettin Koca bildirib ki, Türkiyə və Azərbaycan bölgədə getdikcə nüfuzunu artıran iki vacib güc mərkəzidir...

(səh.4)

## Ermənistan sülh gündəliyinə yönəlməlidir

Ceyhun Bayramov: "Bizim bu yanaşmamız ABŞ tərəfindən də yüksək qiymətləndirilib"



**"Belə həssas bir məqamda, kövrək sülhün əldə edilməsi şansı varkən əsassız iddialar səsləndirilərək revanşistlərə "nəfəs verilməsi" siyasi məsuliyyətsizlikdir. Bunu başqa cür adlandırmaq çətindir".**

Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov deyib. Nazir bildirib ki, müxtəlif ölkələrin ikili standartları adətən həmin ölkələrdəki seçkilər ərəfəsində özünü büruzə verir. C.Bayramov vurğulayıb ki, həm Fransada, həm ABŞ-da, çox böyük erməni lobbisi var: "Onlar seçki prosesləri zamanı kampaniyaları dəstəkləyirlər. Dünyada baş verən bu proseslər siyasətin reallıqlarıdır.

(səh.4)

# Ərdoğanın Paşinyanla görüşü gözlənilir

Əgər baş nazir sülh prosesinə razılıq versə, sərhədlərin müəyyənləşməsinə problem yaratmasa, bu, Ermənistan üçün böyük fürsət olar





**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşə bilər. Bunu Prezident Ərdoğan ABŞ-ın Nyu-York şəhərindən səfərdən qayıdandan sonra söyləyib. O, Praqada keçiriləcək sammitdə iştirak edib-etməməyi hazırda dəyərləndirdiklərini bildirib: "Praqadakı sammitdə iştirak etsək, Paşinyan da ora gələ bilər.**

Deyəsən, onun ağlında "orada görüşə bilərikmi?" fikri var idi. Ola bilsin ki, onunla orada bu məsələlərlə bağlı söhbət edək. Amma təbii ki, Qafqazda bu məsələlərlə bağlı bizim də müəyyən addımlarımız olacaq. Hələlik biz yalnız planlaşdırma prosesindəyik. Qardaşımız İlham Əliyevlə bu məsələləri danışacağıq və ona uyğun addımlarımızı atacağıq".

(səh.3)

# Rusiyada səfərbərlik ölkədə xaos yaradıb

Savaşa getmək istəməyənlər ölkədən çıxmaq qərarına gəliblər



**Rusiya Prezidenti Vladimir Putinin ölkədə qismən səfərbərlik elan etməsi əhali tərəfindən heç də birmənalı qarşılanmayıb.**

Vətəndaşların bir qismi mövcud vəziyyətə etiraz etsələr də, digər bir qismi çıxış yolunu ölkəni tərk etməkdə tapıb. Məhz bu səbəbdən də, dövlət başçısının məlum çıxışından sonra rusiyalıların ölkədən kütləvi qaçışı başlayıb. Qonşu ölkələrə üz tutan rusiyalılar Gürcüstanla sərhəddə tıxaca səbəb olublar. Rusiya-Finlandiya sərhədində də analoji vəziyyət hökm sürüb.

(səh.4)



## KTMT-nin Ermənistandakı missiyası Azərbaycanla sərhəddə olub

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Stanislav Zasın rəhbərlik etdiyi missiya Ermənistanın Azərbaycanla sərhəddə yerləşən əraziyə baş çəkib.**

"Report" xəbər verir ki, bu barədə KTMT-nin mətbuat katibi Vladimir Zaynetdinov TASS-a bildirib.

Təşkilatın Ermənistandakı missiyası Azərbaycan ilə sərhəddə yerləşən Vayots Dzor bölgəsinə səfər edib.

Zas Ermənistan Silahlı Qüvvələrinin təmas xəttində dislokasiya olunmuş bölmələrinin komandirləri, yerli hakimiyyət orqanlarının nümayəndələri ilə görüşüb.

## Daha 3 nəfər vəfat edib

201 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 201 yeni yoluxma faktı qeydə alınıb, 256 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 3 nəfəri vəfat edib. Azərbaycanda indiyədək ümumilikdə 820 299 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 808 981 nəfər müalicə olunaraq sağalıb, 9 900 nəfər vəfat edib, aktiv xəstə sayı 1 418 nəfərdir.

## Qazaxda 3 nəfəri ildırım vurub

Bir nəfər ölüb, iki nəfər xəsarət alıb



**Qazaxda ildırım vurması nəticəsində ölən və xəsarət alan məktəblilərin adları məlum olub.**

APA-nın yerli bürosunun məlumatına görə, rayonunun Birinci Şıxlı kənd tam orta məktəbinin altıncı sinif şagirdi Nuray Osmanova və onun bacısı - dördüncü sinif şagirdi Ayan Osmanova ilə qohumları - beşinci sinif şagirdi Əfsanə Məmmədzadəni ildırım vurub. Nəticədə Nuray Osmanova aldığı xəsarətlərdən yerindəcə dünyasını dəyişib. Onun bacısı və qohumu isə Qazax Müalicə və Diaqnostika mərkəzinə yerləşdiriliblər. Əfsanə Məmmədzadəyə ambulator müayinə və müalicə tədbirləri görüldükdən sonra evə buraxılıb. Ayan Osmanovanın isə reanimasiya şöbəsində müalicəsi davam etdirilir.



## "Bu dəfə çox əminəm..."

Çingiz Göytürk: "İrandakı aksiyaları qısa zamanda yatırmaq mümkün olmayacaq"

(səh.4)

## Sərhədlərin dəyişdirilməsi Azərbaycanın xeyrinə həll olunacaq

Artıq XIX və XX əsrlərə aid ərazi xəritələri belə masadadır



(səh.3)

# Prezident İlham Əliyev Türkiyənin səhiyyə nazirini qəbul edib

## Dövlətimizin başçısı qazilərimizin müalicəsinə görə Türkiyə tərəfinə minnətdarlığını bildirib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Türkiyə Respublikasının səhiyyə naziri Fahrettin Kocanı qəbul edib.**

Fahrettin Koca Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, Azərbaycanın və Türkiyənin dövlət başçıları arasında sarsılmaz birlik və qardaşlıq əlaqələri bütün digər qurumlar kimi, Səhiyyə nazirlikləri arasında da əməkdaşlıq üçün yol göstəricisidir və bu baxımdan ölkələrimizin nazirlikləri sıx əməkdaşlıq həyata keçirir.

Türkiyənin səhiyyə naziri qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması dərin sevinc hissi bəxş edir. Nazir şəhidlərlə bağlı başsağlığı verdi, qazilərə şəfa dilədi. Şuşa Bəyannaməsinin əhəmiyyətini vurğulayan Fahrettin Koca bu sənəddə əksini tapan hədəflər istiqamətində səhiyyə sahəsində də əlaqələri inkişaf etdirmək və dərinləşdirmək üçün çalışdıqlarını bildirdi.

Türkiyəli nazir dedi ki, ölkəsində səhiyyə sahəsində əldə olunan təcrübəni və elmi bilikləri azərbaycanlı həmkarlarla bölüşmək qardaşlıq borcudur. O, dövlətimizin başçısının dəstəyi ilə Bakıda keçirilən Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumunun əhəmiyyətindən danışdı.

Prezident İlham Əliyev Özbəkistanda Türkiyənin dövlət başçısı ilə görüşünü məmnunluqla xatırladı, dostluq və qardaşlıq əlaqələrimizin bütün sahələrdə durmadan inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı Şuşa Bəyannaməsinə toxunaraq bunu münasibətlərimizin rəsmi təzahürü kimi qiymətləndirdi, bu Bəyannamənin xalqlarımızın iradəsini, dövlətlərimizin maraqlarını əks etdirdiyini dedi.

Azərbaycan Prezidenti həm müharibə zamanı, həm də müharibədən sonrakı dövrdə Türkiyə həkimləri tərəfindən qazilərimizin müalicəsinə görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığı qeyd etdi, bu baxımdan səhiyyə sahəsində də əlaqələrin təqdirəlayiq olduğunu dedi və Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumunun önəminə toxundu.

# Avtomobillərin dövlət qeydiyyat nişanları elektron qaydada veriləcək




**Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi vasitəsilə mövcud dövlət qeydiyyat nişanlarının rəqəm və ya hərf kombinasiyaları üzrə dövlət qeydiyyat nişanları veriləcək.**

Bu, Prezident İlham Əliyevin Fərmanı ilə təsdiqlənən "Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsinin (BDYPİ) mərkəzi informasiya sistemi haqqında Əsasnamə"də əksini tapıb.

Əsasnaməyə əsasən, sistem vasitəsilə nəqliyyat vasitələrinin dövlət texniki baxışından keçirilməsi barədə elektron talonlar tərtib olunacaq.

Bundan başqa, dövlət texniki baxışından sonra beynəlxalq sərnişin və yük daşımalarında iştirak edən nəqliyyat vasitələrinin sahiblərinin müraciəti əsasında onlara, həmçinin kağız daşıyıcıda dövlət texniki baxış talonu da veriləcək.

# Ermənistan sülh gündəliyinə yönəlməlidir

## Ceyhun Bayramov: "Bizim bu yanaşmamız ABŞ tərəfindən də yüksək qiymətləndirilib"

**"Belə həssas bir məqamda, kövrək sülhün əldə edilməsi şansı varkən əsassız iddialar səsləndirilərək revanşistlərə "nəfəs verilməsi" siyasi məsuliyyətsizlikdir. Bunu başqa cür adlandırmaq çətindir".**



Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov deyib. Nazir bildirib ki, müxtəlif ölkələrin ikili standartları adətən həmin ölkələrdəki seçkilər ərəfəsində özünü büruzə verir. C.Bayramov vurğulayıb ki, həm Fransada, həm ABŞ-da, çox böyük erməni lobbisi var: "Onlar seçki prosesləri zamanı kampaniyaları dəstəkləyirlər. Dünyada baş verən bu proseslər siyasətin reallıqlarıdır. Biz təmkinli olmalıyıq. Bizim heç bir illüziyamız yoxdur. Ancaq sözümüzü deyəcəyik".

**"Burada vəziyyət eyni deyil. Biz bu təxribatları bir çox ölkədə görürük"**

Ceyhun Bayramov Azərbaycan səfirliklərinin mühafizəsini təmin etməyən ölkələri tənqid edib: "Azərbaycandakı səfirliklərin yüksək standartlarla mühafizəsinin təşkil edilməsi müəyyən mənada Azərbaycan dövlətinin götürdüyü beynəlxalq öhdəliklərə nə qədər böyük məsuliyyətlə yanaşmasının bariz bir nümunəsidir". O xatırladıb ki, BMT-yə üzv olan bütün dövlətlər Vyana Konvensiyasının üzvüdür. Nazir bildirib ki, Konvensiyaya əsasən, beynəlxalq münasibətlərin təməl prinsiplərindən biri hər bir qəbul edən dövlətin diplomatik missiyanın və diplomatların təhlükəsizliyini yüz faiz təmin etməsindən ibarətdir: "Bu kimi təxribat xarakterli addımlara, radikal erməni qruplaşmaları tərəfindən bizim diplomatlarımıza, diplomatik missiyalarımıza qarşı hücumlara münasibət bildirərkən, ilk növbədə, onu qeyd etmək istərdim ki, hər bir qəbul edən tərəfin öhdəliyi təhlükəsizliyin təmin olunmasıdır. Burada vəziyyət eyni deyil. Biz bu təxribatları bir çox ölkədə görürük. Elə ölkələr var ki, özləri qabaqlayıcı tədbirlər görür. Bəzi hallar olur ki, biz özümüz onları məlumatlandırırıq və onlar tez, çevik, operativ tədbirlər görürlər və bunun qarşısını alırlar. Amma əfsuslar olsun ki, bəzi hallarda, yumşaq desək, qəbul edən tərəfin reaksiyası və addımları buna adekvat deyil. Biz belə olan təqdirdə, təbii ki, ciddi şəkildə tələblərimizi qoyuruq, səfirlər dəvət olunur, onlara etiraz notaları verilir ki, bu, təmin edilsin".

**"Bu məsələ nəzarətimizdə saxlanılacaq"**

C.Bayramov söyləyib ki, eyni zamanda, artıq hansısa vandallıq, terror xarakterli vandallıq hadisələri baş veribsə, onlar mütləq şəkildə araşdırılmalı, günahkarlar məsuliyyətə cəlb edilməlidir: "Bu, mütləq şəkildə həyata keçirilməlidir. Azərbaycan dövləti olaraq israrlı şəkildə bunun üzərində dayanırıq. Hesab edirik ki, bu cəzasızlıq mexanizmi növbəti təxribatlar üçün yol açır və onu stimullaşdırır. Ona görə bu məsələ nəzarətimizdə saxlanılacaq". Xatırladaq ki, son günlər bir qrup erməni radikalları Azərbaycanın Fransa, Livan və Gürcüstandakı səfirliklərinə basqın ediblər.

**"Ən azı 2 il ərzində ermənilər üçtərəfli sazişi pozublar"**

Azərbaycan XİN başçısı deyib ki, Ermənistan sülh gündəliyinə yönəlməlidir. Onun sözlərinə görə, Ermənistanın dediyi sözlə əməli arasında fərq var: "Ermənistan sözdə sülh prosesinə sadiqliyini ifadə edir. Onlar delimitasiya prosesinin aparılmasının tərəfdarı olduğunu deyirlər. Amma Ermənistan Təhlükəsizlik Şurasının baş katibi bu ilin iyul ayında etiraf etmişdi ki, terrorçular hələ Qarabağdan çıxarılmayıb. Deməli, ən azı 2 il ərzində ermənilər üçtərəfli sazişi pozublar. Necə olur ki, Laçın şəhəri və ətrafında 2021-ci il Ermənistan istehsallı 1300-dən çox mina aşkarlanıb. Elə isə üçtərəfli sazişə sadiqlikdən necə danışmaq olar? Ermənistan konstruktiv olaraq sülh gündəliyinə yönəlməlidir. Bu, Nyu-Yorkdakı görüşdə bir daha diqqətə çatdırıldı".

**"ABŞ Azərbaycanın yanaşmasını yüksək qiymətləndirib"**

Ceyhun Bayramov bildirib ki, ABŞ Azərbaycanın yanaşmasını yüksək qiymətləndirib: "Biz sülh gündəliyimizə sadiqliyimizi nümayiş etdirdik, sülh müqaviləsi üzrə görüşün keçirilməsi təklifimizin qüvvədə olduğunu bildirdik. Bizim bu yanaşmamız ABŞ tərəfindən də yüksək qiymətləndirilib". O vurğulayıb ki, rəsmi Bakı bölgədə sülh və sabitliyin bərpasını istəyir: "Dövlət Departamentinin açıqlamasına diqqət yetirsəniz, orada da tərəflərə sülh müqaviləsi üzrə danışıqları ən qısa müddət ərzində davam etdirilməsi çağırışı var. Hətta sentyabr ayının sonunadək belə bir görüşün keçirilməsi gözləntisi və çağırışı var. Hər kəs istəyir ki, gərginlik olmasın, bölgədə sülh və əmin-amanlıq bərqərar olunsun".

**İsmayıl**

# Prezident hədəfləri açıq-aydın göstərdi

## Erməni qoşunları Qarabağdan tam çıxarılmalıdır, Zəngəzur dəhlizində işlər başlanmalıdır



**İsmayıl Qocayev**

**"Laçının mərkəzində Azərbaycan bayrağını qaldıran Prezident İlham Əliyev diqqətçəkən məqamlara toxundu. Bu həm də bəzi məsələlərin birinci şəxs tərəfindən təsdiqi baxımından önəmlidir".**

**Bu sözləri "Şərq"ə açıqlamasında siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, Azərbaycan Ermənistan ərazisinə müdaxilə etməyib:** "Dövlət başçısı İlham Əliyev elan etdi ki, delimitasiya aparılmadığı müddətdə sərhədin haradan keçdiyini heç kim iddia edə bilməz. Bu həm xaricdən, həm daxildən səslənən "Azərbaycan Ermənistana təcavüz edib" iddiasına cavab olmaqla yanaşı, problemin yeganə həll yolunun delimitasiya prosesinin reallaşması olduğu da deməkdir. Delimitasiya hansı xəritələrlə aparılacaq? Ölkə rəhbəri rəsmi Bakının XX əsrin xəritələrinə istinad etdiyini bildirir. Burada diqqətçən məqam "SSRİ dövrünün" yox, məhz "XX əsrin və ondan əvvəlki dövrün xəritələri" ifadəsidir. Bu o deməkdir ki, Azərbaycan SSRİ qurulmamışdan öncəki dövrün xəritələrini də masada prioritet sənəd olaraq təqdim edir. Bu gedişin iki mümkün səbəbi var. Hədəfi daha yüksək qoyaraq, ən azı SSRİ dövründə Ermənistana müxtəlif adlar altında verilən ərazilərə nail olmaq. Qazaxın 7 kəndi, Naxçıvanın Kərki kəndi və "otlaq-əkin sahələri" adı ilə ermənilərə "bağışlanan" ərazilərin qaytarılması bu prosesdə həllini tapa bilər. Azərbaycanın tarixi torpaqlara qayıdış ideologiyası danışıqlar masasına çıxarılır".

*Ekspert vurğulayıb ki, dövlət başçısının çıxışı əməliyyatda üç nəticə əldə edildiyini rəsmi şəkildə təsdiqləyir:* "Birincisi, Azərbaycan Ordusu öz torpağında mövqelər tutub. Bu həm də əməliyyatdan sonra ordumuzun geri çəkildiyinə dair iddialara cavabdır. İkincisi, əldə edilən mövqelər bütün sərhəd boyunca həm hərbi üstünlük, həm də vizual nəzarət imkanı verir: Azərbaycan əsgəri ermənilərin mümkün təxribatlarını, ümumiyyətlə, sərhəd boyunca istənilən addımını izləyə biləcək. Üçüncüsü, bu mövqelər Ermənistanın mühüm kommunikasiya xətlərinə nəzarət imkanı da yaradır. Ermənistanın 10 noyabr razılaşmasının icrasından yayındığını deyən Prezident iki prioritet istiqaməti də elan etdi. Erməni qoşunlar Qarabağdan tam çıxarılmayıb. Zəngəzur dəhlizinin açılması ilə bağlı heç bir praktiki iş aparılmır. Mümkündür ki, Azərbaycan bu iki məsələnin icrası istiqamətində praktiki addımlar atsın".

*A.Nərimanlıya görə, ölkə başçısının fikirləri Ermənistan üçün "yol xəritəsi" də hesab edilə bilər:* "10 noyabr razılaşması icra edilməli - erməni qoşunları Qarabağdan tamamilə çıxarılmalı, Zəngəzur dəhlizində işlər başlanmalıdır. Sərhədin delimitasiyası XX əsrin xəritələrinə uyğun aparılmalıdır. Bakının təqdim etdiyi 5 prinsip əsasında sülh sazişinin imzalanmasının alternativi yoxdur".

# Bakı əməli işə keçib, heç kim dayandıra bilməz

## "Bizə yüz minlərlə qaçqın və məcburi köçkünlərimizi öz evlərinə yerləşdirmək lazımdır"



**Prezident İlham Əliyev Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması mərasimində çıxış edib. Ölkə lideri Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyası məsələsinə toxunub. Bu xüsusda diqqətə çatdırıb ki, delimitasiya işi aparılmadan bizi heç kim ittiham edə bilməz:**

"Bir daha demək istəyirəm ki, bütün xəritələr, o cümlədən XIX əsrə, XX əsrə, ondan əvvəlki dövrə aid olan xəritələr bizdədir və o xəritələr açıq-aydın göstərir, kim hansı torpaqda yerləşibdir. Ona görə delimitasiya aparılmadan bizi heç kim ittiham edə bilməz".

**Millət vəkili Asim Mollazadə bu barədə "Şərq"ə danışarkən söyləyib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımır və bunun üçün nəzərdə tutulmuş müvafiq sənədləri də imzalamaqdan yayınır:**

"Rəsmi İrəvan delimitasiya prosesi həyata keçmədən heç vaxt iddia edə bilməz ki, Azərbaycan onun ərazisini işğal edib.

Bu, özü-özlüyündə Ermənistanın münaqişəni davam etdirmək istədiyini göstərir.

Ölkə başçısı çox haqlı olaraq qeyd edib ki, sərhədlər bəlli olmadan Azərbaycanı həmin sərhədləri pozmaqda heç kim ittiham edə bilməz.

Düşünürəm ki, bütün beynəlxalq təşkilatlar Ermənistanın bu hərəkətinə diqqət yetirməlidir. Hər zaman fərqli platformalarda bu haqda danışıqlar olur.

Lakin Ermənistan səhəri gün bu danışıqlardan sonra yenidən Azərbaycan ərazisində təxribat törədir. Fikrimcə, rəsmi Bakını proseslərin icrasında artıq heç kim dayandıra bilməyəcək. Hazırda biz sülh istəyirik.

Bizə yüz minlərlə qaçqın və məcburi köçkünlərimizi öz evlərinə yerləşdirmək lazımdır. İndi "Böyük qayıdış" layihəsi bizim qarşımızda duran əsas hədəflərdən biridir" .

**Günəş Mərd**

**"Vətən müharibəsindəki tarixi qələbədən sonra qalib ölkədə yaşamağın və yaradıcılıq planlarımı həyata keçirməyin zövqü başqa olacaq"**

Məşhur bəstəkar Cavanşir Quliyev 19 ildən sonra xaricdən Azərbaycana köçübCavanşir Quliyev

Əməkdar incəsənət xadimi, məşhur bəstəkar Cavanşir Quliyev Şimali Kipr



# 19 ildən sonra...

## Cavanşir Quliyev birdəfəlik Azərbaycana köçdü

Türk Cümhuriyyətindən Azərbaycana köçüb.

Bu barədə "Report"a bəstəkarın özü məlumat verib.

19 ildir Şimali Kiprin Yakın Doğu Universitetində çalışan professor C.Quliyev bundan sonrakı həyat və yaradıcılığını yenidən doğma Vətəndə davam etdirmək qərarına gəlib.

O, son illər yazdığı irihəcmli əsərləri ifa etdirmək və lentə yazdırmaq zərurəti ilə qarşılaşdığından yenidən Vətənə qayıtdığını bildirib: "Mən Azərbaycan vətəndaşıyam, ölkədən də birdəfəlik getməmişdim. Haraya getsək də, hamımızın sonda dönəcəyi bir ünvan var - Azərbaycan. Sözsüz ki, Vətən müharibəsindəki tarixi qələbədən sonra qalib ölkədə yaşamağın və yaradıcılıq planlarımı həyata keçirməyin zövqü başqa olacaq".

*Qeyd edək ki, C.Quliyev son vaxtlar ölkəyə qayıdan ilk nüfuzlu diaspor nümayəndəsi deyil. Bundan əvvəl də xaricdə yaşayan dəyərli ziyalılarımızdan bir neçəsi birdəfəlik Vətənə geri dönüb.*



# Sərhədlərin dəyişdirilməsi Azərbaycanın xeyrinə həll olunacaq

## Artıq XIX və XX əsrlərə aid ərazi xəritələri belə masadadır

**İsmayıl Qocayev**

**Prezident İlham Əliyev Laçın şəhərində çıxışı zamanı Bakının İrəvana sülh təklifi, delimitasiya xəritələri, Zəngəzur dəhlizi, Ermənistanın revanşist mövqeyi barədə danışıb. Dövlət başçısı sərhəddəki son gərginliklə bağlı Ermənistanın iddialarına cavab verib. Ölkə başçısı qeyd edib ki, Azərbaycan Ermənistana müharibədən dərhal sonra sülh təklif edib, amma İrəvan hələ də revanşist fikirlərindən əl çəkmir, sülh istəmir:**

”Biz müharibədən dərhal sonra onlara sülh təklif etdik. Bu da dünya hərb tarixində bəlkə də nadir hallardan biridir ki, 30 il ərzində torpağımız işğal altında olsun, insanlarımız əzab-əziyyət içində yaşasın, tarixi-dini abidələrimiz dağıdılsın, şəhərlərimiz dağıdılsın, milyondan çox mina döşənsin, buna baxmayaraq, biz sülh təklif etdik. Ancaq yenə də görürük ki, Ermənistan sülh istəmir, yenə də revanşist fikirlərlə yaşayır”. Ötən dövr ərzində baş verən hadisələr əyani şəkildə sübut edir ki, Ermənistan hakimiyyəti üçtərəfli bəyanata imza atdıqdan sonrakı müddətdə sülh müqaviləsinin imzalanması ilə bağlı ziddiyyətli davranışlar sərgiləyib. Öhdəliklərindən boyun qaçırmağa cəhd edib. Azərbaycanın təklif etdiyi sülh müqaviləsinə etinadsız yanaşıb. Həmçinin, Qarabağda təxribatlar törədib və dövlət sərhədində isə diversiya əməliyyatları həyata keçirməyə cəhd edib. Təbii ki, İrəvanın Bakının sülhpərvər təkliflərinə laqeyd yanaşması sərhədlərin delimitasiyası prosesinə də böyük əngəl törədir. Çünki Azərbaycanın sülh təklifinin əsasını delimitasiya prosesi, ərazi bütövlüyünün qarşılıqlı tanınması təşkil edir. Prezident çıxışı zamanı Bakının delimitasiya prosesində tutduğu qəti mövqeyə, təklif etdiyi xəritələrlə bağlı diqqətçəkən məqamlara toxunub: ”Biz təklif etdik ki, delimitasiya prosesinə start verək. Bunu təxminən bir ildən çox müddət ərzində uzatdı. İndi isə bu proses başlasa da, sırf formal xarakter daşıyır, mahiyyət üzrə heç bir danışıqlar aparılmır, xəritələr üzrə heç bir müzakirə aparılmır. Biz bütün xəritələri hazırlamışıq. Həm XX əsrin xəritələrini, həm əvvəlki dövrün xəritələrini və delimitasiya işləri bu xəritələr üzrə aparılmalıdır”. Dövlət başçısının çıxışından bir daha aydın olur ki, Azərbaycan heç bir vasitəçi olmadan Ermənistanla delimitasiya prosesinə başlaya bilər. Bakının əlində prosesin sürətli, həmçinin dəqiq aparılması üçün xəritələr var və onlar delimitasiya prosesinin əsasını təşkil edəcək. Amma Ermənistan rəhbərliyinin revanşist davranışları, masaya əyləşməkdən imtina etməsi sərhədlərin delimitasiyası prosesini ləngidir. Ölkə başçısı Ermənistanın Zəngəzur dəhlizinin inşası prosesindən yayınma cəhdlərindən danışıb. Prezident qeyd edib ki, Azərbaycan Ermənistandan fərqli olaraq dəhlizin inşası ilə bağlı üzərinə düşən öhdəlikləri vaxtında icra edir: ”Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi. Bu günə qədər nəinki dəhliz verilməyib, hətta dəhlizin marşrutu bizə deyilməyib. Heç bir praktiki iş aparılmayıb. Biz isə indi dəmir yolunu Zəngilana qədər çəkmişik. Avtomobil yolunu Zəngilana qədər çəkmişik. Biz gələn ilin sonunda Ermənistan sərhədinə həm dəmir yolunu, həm avtomobil yolunu gətirəcəyik. Ancaq Ermənistan ərazisində heç bir iş görülmür və görünür ki, heç bir iş görmək istəmirlər. Yenə də vaxt uzadırlar”. Dövlət başçısının səsləndirdiyi sərt və qətiyyətli bəyanatlar göstərdi ki, Azərbaycan revanşist və işğalçı Ermənistanın qeyri-konstruktiv addımlarına qarşı bundan sonra da barışmaz mövqe sərgiləyəcək.

> “Maraqlıdır ki, böyük planlarda İranın xeyrinə faydalı perspektivlər görünmür. Çünki proseslərdən Rusiya, ABŞ, Britaniya, Türkiyə qazansa da, İran əlindəki vasitələrdən məhrum olur”

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə bildirib ki, Prezident İlham Əliyevin Laçın şəhərindəki çıxışı regional perspektivin və siyasi xəritəsinin Ermənistanın davranış kodeksindən asılı olduğu mesajının bəyanı kimi şərh edilə bilər.** Analitikə görə, dövlət başçısının diqqət çəkdiyi məqamlar hərbi əməliyyatlardan sonra yaranan konfiqurasiyanı ümumi şəkildə canlandırır: ”Azərbaycanın sonuncu əməliyyatları sərhədin Laçın, Kəlbəcər və Daşkəsən istiqamətindən Ermənistanın daxili üçün tektonik çatlar yaradır. Dövlət başçısı İlham Əliyevin ”sərhəd boyunca əldə etdiyimiz mövqelər imkan verir ki, biz istənilən erməni təxribatını qabaqcadan görək və lazımi tədbirlər görək” deməsi vəziyyətin Azərbaycan Ordusu üçün hərbi-strateji məzmununu göstərir. Yəni yeni nəzarətə keçirilən ərazilər Azərbaycana böyük əraziyə vizual nəzarət imkanı yaradır və başqa hərbi üstünlüklər verir. Hərbi qaydalarla hesablama aparsaq, deyə bilərik ki, Azərbaycan Ordusu Ermənistan bölmələrinin sərhəddə doğru gətirə biləcəyi təhdid yolları, təminat marşrutları və geniş zolaqdakı hərəkət trayektoriyası Azərbaycanın nəzarəti altına düşür. Azərbaycan ərazi nailiyyətlərini sərhədlərin delimitasiyası kontekstində inkişaf etdirir. Artıq XIX və XX əsrlərə aid ərazi xəritələri belə masadadır və bu, Azərbaycanın danışıqlardakı şərtlərinin həcmini və miqyasını göstərir. Ermənistan hansısa havadarının yağlı vədlərinə aldanıb hərbi təxribatın müəllifinə çevrilsə, Azərbaycan yenidən layiqli cavab verəcək. Ermənistanda revanş hissləri coşsa, Azərbaycan hərbi əməliyyatları bərpa edə bilər. Bu dəfə əməliyyatlar elə Ermənistanın ərazilərindən başlayıb və daha da irəlidə olan dərinliklərə qədər yayıla bilər. Biz prosesləri və ərsəyə gələcək nəticələri beynəlxalq münasibətlər sferasındakı alovun üzərinə tezalışan maddələrin tullanması fonunda da diqqətdə saxlamalıyıq”.

Ekspert vurğulayıb ki, dünyada siyasi xəritənin, sərhədlərin dəyişdirilməsi prosesinə start verilib: ”Hazırda lokal hesab olunan münaqişələr belə həssas dünya nizamını təhdid edir. Azərbaycan milli təhlükəsizlik maraqlarından irəli gələrək bəzi hərbi tədbirlər görməyə ehtiyac duyur. Təhlükəsizlik qayğılarının artması fonunda Azərbaycan-Ermənistan gərginliyi yeni mərhələyə qədəm qoya bilər.

Türkiyənin, Rusiyanın, Qərbin strateji hesablamaları elə rəqəmlərə əsaslanır ki, Cənubi Qafqazda da sərhəd dəyişikliyi baş versin. Rəqib tərəflər isə mümkün nəticələrdən maksimum pay qoparmaq üçün faktiki şəraiti öz əllərində həlledici vasitəyə çevirmək niyyətindədir. Qlobal teatrın Cənubi Qafqaz səhnəsindəki maraq toqquşmasında ən güclü rəqiblər: - Rusiya, Britaniya-ABŞ tandemi və Türkiyədir.

Regionda həlledici cazibə mərkəzi Azərbaycan olduğundan maraqların təmini Bakı ilə əlaqələndirmə mexanizmindən keçir. Bu mexanizmdə Türkiyə strateji müttəfiqdir. Rusiya Azərbaycanın maraqlarına önəm verir. ABŞ Azərbaycana münasibətdə ara-sıra sürüşkən ”yüksəkliyə” çıxsa da, nəticədə Bakı ilə əlaqələrin inkişafı Ağ Evin Cənubi Qafqaz prioritetlərində üstünlük təşkil edir. Böyük Britaniya isə Azərbaycanın strateji tərəfdaşına çevrilib”.

*A.Kərimovun fikrincə, maraqlar platforması vəcdə gəlsə də, proses Azərbaycanın xeyrinə doğru dəyişəcək:* ”Pərdəarxasındakı qlobal niyyətlərdə sərhədlərin dəyişdirilməsi konteksti Azərbaycanın xeyrinə yönləndiriləcək. Maraqlıdır ki, böyük planlarda İranın xeyrinə faydalı perspektivlər görünmür. Çünki proseslərdən Rusiya, ABŞ, Britaniya, Türkiyə qazansa da, İran əlindəki vasitələrdən məhrum olur, Tehranın ”sərhəd dəyişikliyinə dözməyəcəyik” hayqırtıları İslam Respublikasının taleyi ilə bağlı qaranlıq mətləblərdən xəbər verir. Ölkə başçısının XIX-XX əsrin xəritələrini gündəmə gətirməsi, hesab edirəm ki, daha geniş məna tutumuna malikdir”.

# Ərdoğanın Paşinyanla görüşü gözlənilir

## Əgər baş nazir sülh prosesinə razılıq versə, sərhədlərin müəyyənləşməsinə problem yaratmasa, bu, Ermənistan üçün böyük fürsət olar



**İsmayıl Qocayev**

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşə bilər. Bunu Prezident Ərdoğan ABŞ-ın Nyu-York şəhərindən səfərdən qayıdandan sonra söyləyib. O, Praqada keçiriləcək sammitdə iştirak edib-etməməyi hazırda dəyərləndirdiklərini bildirib: ”Praqadakı sammitdə iştirak etsək, Paşinyan da ora gələ bilər.**

Deyəsən, onun ağlında ”orada görüşə bilərikmi?” fikri var idi. Ola bilsin ki, onunla orada bu məsələlərlə bağlı söhbət edək. Amma təbii ki, Qafqazda bu məsələlərlə bağlı bizim də müəyyən addımlarımız olacaq. Hələlik biz yalnız planlaşdırma prosesindəyik. Qardaşımız İlham Əliyevlə bu məsələləri danışacağıq və ona uyğun addımlarımızı atacağıq”.

**Ərdoğanın açıqlamasını ”Şərq”ə təhlil edən politoloq Turab Rzayev bildirib ki, 44 günlük müharibədən və üçtərəfli bəyanatın imzalanmasından sonra Azərbaycan və Türkiyə ilə Ermənistan arasında siyasi-iqtisadi əlaqələrin inkişaf etdirilməsi, sərhədlərin açılması, nəqliyyat-logistika xətlərinin fəaliyyətə başlaması çox vacib məsələlər hesab olunur.** Analitikə görə, məğlub Ermənistanı düşmənin qucağına atmaq əvəzinə, özümüzə tərəf çəkmək daha məqsədəuyğundur: ”Əks halda Ermənistan revanşist meyillərlə yenidən Rusiyaya möhtac olacaq və Moskvanın yanında yer alacaq. Biz isə istəyirik ki, Ermənistan Azərbaycan və Türkiyə ilə siyasi-iqtisadi əlaqələr qursun, sərhədləri açsın. Yəni İrəvan öz gələcəyini Türkiyə və Azərbaycanla normal qonşuluq münasibətlərində görsün. Çünki 2 milyonluq Ermənistan 10 milyonluq Azərbaycan və 80 milyonluq Türkiyə ilə düşmən kimi yaşaya bilməz. Həm Bakıda, həm də Ankaradan çox müsbət addımlar atıldı. Türkiyə dəfələrlə bəyan edib ki, Ermənistanla iqtisadi əlaqələr, hava reysləri bərpa oluna bilər. Azərbaycan da buna etiraz etmir və sülhdən, normal münasibətlərdən yana olduğunu hər dəfə vurğulayır. Ancaq Ermənistan tərəfindən bütün proseslərlə bağlı ciddi yubatma, ləngitmə hiss olunur. Bu yubatma da sərhəd təxribatı, revanşist qüvvələrin güclənməsi, danışıqların pozulması ilə həyata keçirilir”.

**T.Rzayev vurğulayıb ki, Paşinyan özü Türkiyə lideri ilə görüş istəmişdi. Hətta bunun üçün Gürcüstan rəhbərliyinə də müraciət etmişdi ki, vasitəçi olsun:** ”Əsas məsələ Paşinyanın görüşlərdə üzərinə götürdüyü öhdəliklərə, verdiyi sözə əməl etməsidir. Əgər Paşinyan sülh prosesinə razılıq versə, sərhədlərin müəyyənləşməsinə problem yaratmasa, Azərbaycan və Türkiyə ilə əməkdaşlıqda maraqlı olsa, bu, Ermənistan üçün böyük fürsət olar. Türkiyə Ermənistanla sərhədləri açmaqla, iqtisadi əlaqələri genişləndirməklə İrəvan üzərinə təzyiq və təsir imkanı da qazanacaq. Nəticədə Ermənistan Türkiyənin iqtisadi əlavəsinə çevriləcək. Bu, çökən Ermənistan iqtisadiyyatı üçün böyük imkanlar deməkdir. Həm də Türkiyə və Ermənistan bununla Ermənistanın yenidən hansısa xarici qüvvələrin əlində alət olmasının qarşısını almış olar. Ona görə mən bu təklifi çox müsbət qiymətləndirirəm. Eyni zamanda Ərdoğanın ”qardaşım İlham Əliyevlə bu məsələləri danışacağıq və ona uyğun addımlarımızı atacağıq” deməsi də Ermənistana açıq mesajdır. Ərdoğan diqqətə çatdırır ki, İrəvan düşünməsin ki, bu prosesdə Azərbaycanla Türkiyənin münasibətlərini korlaya bilərlər. Yəni eyni anda Türkiyə ilə normal münasibətləri qurmaq və Azərbaycanla düşmənçilik etmək mümkün deyil. Azərbaycan və Türkiyə Ermənistanla yaxınlaşmanı koordinasiyalı şəkildə edir”.

# "İranın təhdidləri rəsmi Bakını qorxuda bilməz"

## Fərəc Quliyev: “Azərbaycan-Ermənistan münasibətlərinin üçüncü dövlətə heç bir aidiyyəti yoxdur”



**İran Silahlı Qüvvələrinin baş qərargah rəisi, general-mayor Məhəmməd Baqiri hərbi paradda çıxışı zamanı Azərbaycanı təhdid edib. O, çıxışında Ermənistan sərhədinin dəyişəcəyi təqdirdə İranın sakit oturmayacağını bəyan edib.**



*Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev M.Baqirin sözügedən bəyanatı ilə bağlı ”Şərq”ə danışarkən bildirib ki, İran tərəfi belə ikrah doğuran fikirlər səsləndirməzdən öncə öz daxili problemlərini həll etməlidir:* ”Azərbaycan-Ermənistan münasibətlərinin üçüncü dövlətə heç bir aidiyyəti yoxdur. İranın ağlı otuz il əvvələ getməsin. Cənub qonşumuz bütün dövrlərdə Ermənistana dəstək verib, islamdan danışa-danışa özü bütün dini qaydaları pozub. Azərbaycan ərazisində ağlasığmaz dağıntılar aparıb.

Rəsmi Tehran hadisələrə belə həssas yanaşırsa, otuz il öncə harda idi? Sərhədlərin dəyişilməsindən bu qədər narazıdırsa, otuz il öncə Ermənistan Azərbaycan ərazilərini işğal edəndə niyə səsini çıxarmırdı? Bunlar bir ara bizim də üzərimizə gəldilər və cavablarını alıb yerlərinə oturdular. İranın təhdidləri rəsmi Bakını qorxuda bilməz. Azərbaycanın özünün yol xəritəsi var.

O, xəritəyə uyğun olaraq özünə lazım olan istədiyi addımları atacaq. Burda İranın nə düşündüyünün heç bir önəmi yoxdur. İran zamanında onsuz da bizə kifayət qədər pisliklər edib. İkinci Qarabağ savaşında Gürcüstan öz ərazisindən silahların keçirilməsinə icazə vermədiyi bir vaxtda rəsmi Tehran minlərlə silahın öz ərazisindən M2 yolu ilə Ermənistana keçirilməsini təmin edib.

Bizim silahlı qüvvələr Zəngilanda onların qarşısını alıb və yubadıb. Yüzlərlə belə fakt saymaq olar. İndi İranın belə hay-küy salmağının bizə heç bir təsiri ola bilməz. Azərbaycanın istənilən dövlətə cavab vermək üçün kifayət qədər imkanları var. Dövlət başçımız da dəfələrlə qeyd edib ki, biz kiminsə hədə-qorxusuna görə öz prinsiplərimizdən əl çəkən deyilik” .

**Günəş Mərd**

# Rusiyadakı aksiyalar idarə olunandır

## Ancaq İrandakı proseslər siyasi sistemin çat verməsindən xəbər verir

**İranda hicab qaydalarına qarşı çıxmış gənc qadın Məhsa Əmininin əxlaq polisi tərəfindən saxlanılması və daha sonra ölməsi ciddi etirazlara yol açıb. Bu ölkədə 10 gündən artıqdır ki, aksiyalar davam edir.**



Etirazın dalğası ölkənin bir çox şəhərlərinə yayılıb. Qadınlar örpəklərini və hicablarını tonqallarda yandırırlar. Çərşənbə günü Tehranda bir neçə universitetin tələbələri Məhsa Əmininin ölümünə etiraz olaraq küçələrə çıxıb. Xatırladaq ki, etirazlar Tehran, Məşəd, Rəşt, Kerman, Bəndər Abbas, Qum, Kermanşah, Zəncan, Sari, Rəfsəncan və Qəzvində keçirilir.

Digər tərəfdən Rusiyada da ümum-Rusiya mitinqi elan ediblər. Qeyd edək ki, etiraz aksiyaları Rusiya Prezidenti Vladimir Putinin qismən səfərbərlik elan etməsindən sonra alovlanıb.

Bəzi analitiklər bu aksiyaların baş verməsində Qərbin ”əlinin” olduğunu iddia edirlər. Onların fikrincə, Qərbin İran və Rusiyanın ətrafına yerləşdirdiyi ”minalar” artıq partlamağa başlayıb.

**Etiraz aksiyalarını ”Şərq”ə dəyərləndirən politoloq Azər Rəşidoğlu etirazların nə Rusiyada, nə də İranda hakimiyyət dəyişikliyinə səbəb olmayacağını deyib:** ”Rəsmi Moskvadakı aksiyalar hakimiyyət böhranından xəbər verir. İnsanlar Putinin və Kremlin ambisiyalarına qurban getmək istəmirlər. Rusiya hakimiyyəti hələ ki kifayət qədər güclüdür. Əgər Putin hakimiyyəti qısa zamanda Ukraynada məğlubiyyətə uğramayacaqsa, mövcud siyasi elitanın devriləcəyini ehtimal etmirəm. İndiki hakimiyyətin zəifləməsi üçün oliqarxların Putinə qarşı çıxması lazımdır. Qərbin və Avropanın sanksiyaları oliqarxları Putinə qarşı birləşməyə sövq etsə də, bunun açıq işartıları görünmür. Rusiyada mitinqə çıxanların sayı çox deyil. Buna görə də ciddi nəticələrin olacağına inanmıram”.

**Analitikin fikrincə, İrandakı aksiyalarda sosial tələblərlə yanaşı, siyasi tələblər də irəli sürülür:** ”Rəsmi Tehrandakı mitinq fərqli yöndə irəliləyir. Etirazçılar artıq rejimin devrilməsi və diktatorun getməsi ilə bağlı şüarlar səsləndirirlər. Məsələ ondadır ki, bu aksiyalar kortəbii şəkildə həyata keçirilir.

Onların başında dayanan bir təşkilat və lider yoxdur. Hökumət də bundan istifadə edərək onları parçalayır. Bu gedişatla etirazlar zəifləyə bilər. Aksiyalar zəiflədiyi an rejim güc tətbiq edərək mitinqləri tamamilə yatıra bilər. Lakin bir müddətdən sonra hər şey yenidən başlayacaq.

Bu da İrandakı siyasi sistemin çat verməsindən xəbər verir. Amma bu çıxışlar da hakimiyyət dəyişikliyinə səbəb olmayacaq”.

**Nihat Müzəffər**



**Təbrizdən olan azərbaycanlı siyasi şərhçi Çingiz Göytürk "Şərq"ə açıqlamasında deyib ki, İran fars dövlətində mövcud dini rejimə qarşı bir neçə gündür davam edən etiraz aksiyaları daha öncə də olub. Ekspert 2009-cu ildə isə prezident seçkiləri zamanı İranda baş vermiş "yaşıllar hərəkatı"nı xatırladıb:** "Neçə gün öncədən Məhsa Əmininin İranın Daxili İşlər Nazirliyinin İrşad qüvvələri tərəfindən öldürülməsinə etiraz olaraq başlamış kütləvi aksiyalar daha əvvəlki etirazlardan mahiyyət etibarı ilə böyük ölçüdə fərqlənir. Başlıca fərq ondan ibarətdir ki, indiki etirazlar kiçik, lokal xarakterli aksiya olaraq qalmadı. İranda etiraz aksiyaları gündən-günə genişlənir. Özü də fars dövlətinin bütün şəhərlərində etirazlar var. Millətin bütün təbəqələri, sinifləri etiraz aksiyalarına qoşulur. Xüsusən, qadınlar etiraz aksiyalarının önündədir və İran İslam Respublikasının ən önəmli təməllərindən birinə qarşı çıxırlar. İlk dəfə olaraq bu qədər açıq formada hicab məsələsinə, yəni qadınların zorakılıq gücünə örtünməsinə qarşı etirazlarını bildirir, öz hüquqlarını müdafiə edirlər. Ancaq bir məsələni diqqətdən qaçırmamalıyıq. Güney Azərbaycandakı etirazlarda Məhsa Əmininin ölümünə, qadın haqq-hüquqlarının müdafiəsinə yönəlik şüarlarla yanaşı, daha ciddi bir şüar da ön plana çıxır. Bu şüarlar - "Azadlıq, ədalət və milli hökumət"dir. Yəni Güney Azərbaycan bölgələrində etiraz nümayişlərinə çıxan insanlar ümumiran hərəkatında qadın və insan haqları uğrunda mübarizəyə verdikləri dəstəklə bərabər, özlərinin istəklərini, tələblərini, milli haqq-hüquqlarını da ortaya qoyurlar. Bu, çox önəmli və diqqət yetirilməsi zəruri məsələdir. Türk bölgələrində baş verən aksiyalar digər yerlərdəki etirazlardan ciddi şəkildə fərqlənir".

**Ç.Göytürk aksiyaların nə qədər davam edəcəyi və nəticələri ilə bağlı sualımızı belə cavablandırıb:** "İrandakı etirazları qısa zamanda yatırmaq mümkün olmayacaq. Ən əsası isə bu etirazlar fars dövlətinin təməlini sarsıdacaq. Bundan ciddi şəkildə əminəm. Hətta etirazlar rejimin yıxılmasına qədə gedə bilər. Bütün imkanlar cəlb edilərək etirazlar yatırılsa belə aksiyalar İran fars dövlətinin imicinə böyük ölçüdə zərbə vuracaq. Rejim heç vaxt keçmiş gücündə olmayacaq və daxili problemlərlə daha çox məşğul olmaq məcburiyyətində qalacaq. Nəticədə bölgə dövlətləri, o cümlədən Azərbaycan İranın şərindən, ən azından şərin bir qismindən xilas olmuş olacaq. Ümumən hesab edirəm ki, bu hələ başlanğıcdır və davamı gələcək".

# "Bu dəfə çox əminəm..."

## Çingiz Göytürk: "İrandakı aksiyaları qısa zamanda yatırmaq mümkün olmayacaq"

**22 yaşlı Məhsa Əmininin ölümü İranda böyük etirazlara səbəb olub. Artıq bir neçə gündür ki, qonşu İranın Tehran, Təbriz, İsfahan, Şiraz, Kirman və digər böyük şəhərlərində kütləvi aksiyalar keçirilir. Əsasən qadınların üstünlük təşkil etdiyi aksiyalarda əsas tələb vətəndaşlara azadlıq hüququnun verilməsi və məcburi hicab tələbinin ləğv olunmasıdır. İranlı qadınların hicab aksiyasına kişilər də qoşulmağa başlayıb. Etirazçılar hökumətin yürütdüyü siyasətdən narazılıq edərək, sivil cəmiyyətdə yaşamaq istədiklərini bəyan ediblər. Bəzi şəhərlərdə polis etirazçılara qarşı silahdan və gözyaşardıcı qazdan istifadə edib.**



"Bütün imkanlar cəlb edilərək etirazlar yatırılsa belə aksiyalar İran fars dövlətinin imicinə böyük ölçüdə zərbə vuracaq. Rejim heç vaxt keçmiş gücündə olmayacaq"

Polislə qarşıdurmada xəsarət alanların olduğu bildirilir. İranda rejimin tətbiq etdiyi hicab qaydalarına qarşı etiraz aksiyaları bundan öncə də olub. Hətta bir neçə ay əvvəl Tehran hakimiyyətinin hicab qaydasını pozanlara qarşı tədbirlər planı çərçivəsində Güney azərbaycanlı ictimai fəal Məleykə Qaragözlü 4 il yarım müddətinə azadlıqdan məhrum edilib. İndi kürd etnosunun nümayəndəsi olan Məsihə Əmini də həmin qaydaları pozanlara qarşı mübarizə tədbirlərinin qurbanlarından birinə çevrilib. Son hadisə İran rejiminin tətbiq etdiyi hicab qaydalarına bir etnosun və bir neçə insanın deyil, ümumilikdə dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütövlükdə İran cəmiyyətinin mövcud hakimiyyətə və onun tətbiq etdiyi qaydalara etirazıdır.

**Hazırda Finlandiyada yaşayan,**

**İsmayıl Qocayev**

# İrəvan hökuməti əvvəlki yanaşmasından vaz keçməyib

## Təxribatlar ona görə törədilir ki, Ermənistanda revanşizmi canlı, diri tutmaq istəyənlər var

**İsmayıl Qocayev**



Digər tərəfdən bölgədə marağı olan güclər də İrəvana təsir göstərir. Həm də Paşinyan hökuməti siyasi-hərbi və təhlükəsizlik baxımından dövlətə tam hakim deyil

**Ermənistan Silahlı Qüvvələri növbəti dəfə Kəlbəcər istiqamətindəki mövqelərimizi iriçaplı silahlardan, qumbaraatan və minaatanlardan atəşə tutublar. Bununla yanaşı, düşmən tərəf diversiya təxribatı törətməyə də cəhd ediblər. Ermənilərin diversiya qrupu Kəlbəcər-Laçın istiqamətində dərə boşluqlarını minalamaqla bölmələrimizə basqın etməyə cəhd göstərib.**

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən cavab tədbirləri nəticəsində qarşı tərəf geri çəkilməyə məcbur edilib. Ermənistan tərəfi sentyabrın 21-də Azərbaycan Ordusunun bölmələri tərəfindən guya atəş açılması barədə dezinformasiya yaymaqla gecə saatlarında törətdikləri təxribata zəmin yaratmağa çalışıb. Rəsmi Bakı vurğulayıb ki, Azərbaycan-Ermənistan dövlət sərhədində baş verən növbəti gərginliyə görə bütün məsuliyyət məhz Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

**Ermənistanın növbəti təxribat cəhdlərini "Şərq"ə təhlil edən Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Araz Aslanlı deyib ki, münaqişə tərəflərinin prosesə yanaşması fərqlidir. Analitik qeyd edib ki, Azərbaycanın məsələyə dair mövqeyi müstəqillik əldə etdiyimiz gündən bu yana, demək olar ki, dəyişməyib:** "Rəsmi Bakının mövqeyi odur ki, əgər ərazi bütövlüyünə və suverenliyə hörmət qarşılıqlı şəkildə olarsa, dövlətlər bir-birinin daxili işinə qarışmazsa, bölgədə sülh olar və bütün region ölkələri bundan xeyir görər. Azərbaycan öz əraziləri işğal altında qaldığı müddətdə belə daim sülh naminə danışıqlar prosesində maraqlı olub. Ancaq bunun əksinə Ermənistan 30 il ərzində sadəcə təxrtibat törətmək, təcavüzü genişləndirmək barədə düşünüb. Hətta işğalçılıq Ermənistanın özünə ziyan vurduğu halda, hansısa xarici güclərin maraqları uğruna təcavüzdən əl çəkməyib. Bu, çox yanlış bir strategiya olub. Ermənistanda az da olsa bu yanlış strategiyaya qarşı çıxanlar olsa da, İrəvan hökuməti əvvəlki yanaşmasından vaz keçməyib. Əslində çoxları zənn edirdi ki, Ermənistan 44 günlük müharibədən, ağır məğlubiyyətdən sonra Ermənistanda mövcud reallıqları dərk edənlərin sayı artar. İrəvan durumdan nəticə çıxardar. Lakin biz bunu müşahidə etmədik. Düzdür, Ermənistanda 1990-cı illərin əvvəllərindən fərqli olaraq yanlış siyasəti dərk edənlərin sayında artım var. Ancaq görünən odur ki, hələ də arzulanan səviyyədə deyil. Təxribatlar ona görə törədilir ki, Ermənistanda revanşizmi canlı, diri tutmaq istəyənlər var. Digər tərəfdən bölgədə marağı olan güclər də İrəvana təsir göstərir. Həm də Paşinyan hökuməti siyasi-hərbi və təhlükəsizlik baxımından dövlətə tam hakim deyil. Vəziyyət elədir ki, ermənilər tərəfindən bir addım atılanda bunun Paşinyan tərəfindən edildiyi, yaxud digər güclərin təsiri ilə olduğu haqda dəqiq təsəvvür formalaşmır. Hansısa təxribat törədəndə adamın ağlına ən azı 5 dövlət gəlir ki, görəsən, budəfəki təxribatın arxasında kim dayanır?!".

**A.Aslanlı vurğulayıb ki, Ermənistan tərəfdə və onları dəstəkləyən ölkələrdə bir düşüncə hakimdir**: "Onlar düşünürlər ki, Azərbaycan-Ermənistan arasında qarşıdurma olmaması, proseslərin sakit irəliləməsi, Cənubi Qafqazda sabitliyin möhkəmlənməsi zəruri məqamlarda bölgəyə nüfuz etmək imkanlarını da aradan qaldıracaq: "Əks halda üç dövlət arasında imzalanmış 10 noyabr üçtərəfli bəyanatı tərəflər arasında həm atəşkəsin olmasına, həm də sülh prosesinin inkişafına kifayət etməliydi. Ancaq kənar qüvvələrin müdaxiləsi və Ermənistanın təhrik edilməsi buna imkan vermir. Cənab Prezident dəfələrlə bildirib ki, münaqişə bitib və biz quruculuqla məşğuluq. Ermənistan və onun dəstəkçiləri isə öz təxribatları ilə bölgədə müharibə təhlükəsinin qaldığını, quruculuq işlərinin riskli olduğunu göstərməyə çalışırlar. Ona görə də Azərbaycan həm hərbi ritorikasını davam etdirir, lazım olanda düşməni əzir, eyni zamanda paralel olaraq quruculuq-bərpa işlərini həyata keçirir. Bu da çox önəmli iki nüansdır".

# Pandemiyanın sonuna doğru yaxınlaşırıq

## Azərbaycan və Türkiyə səhiyyə nazirləri ortaq əlaqələri dəyərləndirdilər

**Türkiyənin Səhiyyə naziri Fahrettin Kocanın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana ikigünlük işgüzar səfəri başlayıb.**




Türkiyə səhiyyə nazirinin səfəri çərçivəsində "Azərbaycan-Türkiyə səhiyyə biznes forumu və sərgisi"ndə iştirak, Azərbaycan Səhiyyə Nazirliyində görüş, həmçinin Azərbaycan mədəniyyətinin incisi olan Şuşa şəhərinə ziyarət nəzərdə tutulub.

Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumu və sərgisinin açılış mərasimində çıxış edən Fahrettin Koca bildirib ki, Türkiyə və Azərbaycan bölgədə getdikcə nüfuzunu artıran iki vacib güc mərkəzidir:

"Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumu əməkdaşlığımızı genişləndirəcək. Türkiyə həm COVID-19 pandemiyası, həm də İkinci Qarabağ müharibəsində Azərbaycanla çox sıx münasibətdə olub: "Bu forumun mövcud əməkdaşlığımızı genişləndirməsinə və yeni planların yaradılmasına zəmin yaradacağına ümid edirəm. Türk şirkətlərinin Azərbaycandakı yatırımı 12 milyard dolları keçib. Türkiyədəki Azərbaycan şirkətlərinin yatırımı isə 20 milyard dolların üzərindədir. İkili ticarət həcmi, təxminən, 5 milyard dollar civarındadır.

Bu rəqəmin 15 milyard dollara çatmasında qatqılarımızın olacağına inanırıq. Türkiyə və Azərbaycan dərman, tibbi avadanlıq, kosmetika, xəstə müalicəsi və səhiyyə sahəsindəki yatırımlar istiqamətində qarşılıqlı ticari tərəfdaşdırlar. İldə, təxminən, 500 minə yaxın Azərbaycan vətəndaşı Türkiyəyə turist kimi səfər edir".

Türkiyə nazir həmçinin deyib ki, Türkiyəyə müalicəyə gedənlər üçün xüsusi portal istifadəyə verilib. "Müalicə üçün ölkəmizi seçən şəxslər portal üzərindən xəstəxana və həkim seçimini edə biləcəklər".

Azərbaycanın Səhiyyə naziri Teymur Musayev isə sözügedən mərasimdə pandemiyanın sonuna doğru getdiyimizi bəyan edib: "Ümumdünya Səhiyyə Təşkilatının rəhbərliyi artıq pandemiyanın sonunun yaxınlaşması ilə bağlı ümid olduğunu bildirib. Azərbaycanda koronavirusdan ölüm halları minimal səviyyədədir. Yoluxanlar hələ də var. Buna görə pandemiyanın sonuna doğru getdiyimizi bəyan edə bilərəm". Nazir eyni zamanda qeyd edib ki, Azərbaycanda kifayət qədər vaksin ehtiyatı var: "Bu günə qədər peyvənd olmayan şəxsləri vaksinasiyadan keçməyə çağırıram".

Nazir həmçinin deyib ki, Azərbaycanda "Turkovac" vaksinin 3-cü faza klinik sınaqları uğurla davam edir. Artıq ilkin məlumatlar toplanılıb Türkiyə tərəfinə daha dəqiq və dərin təhlil üçün təhvil verilib: "İnanırıq ki, qısa müddətdə Azərbaycanda keçirilmiş sınaqlar "Turkovac"dan sonra silsilə gələn vaksinlər üçün öz töhfəsini verəcək".

T.Musayevin sözlərinə görə, xəstəxanaların təchizatının böyük əksəriyyətini Türkiyə istehsalı olan tibbi avadanlıq və alətlər təşkil edir.

17 may 2022-ci il tarixdə Ankara şəhərində Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə Türkiyə Respublikası Səhiyyə Nazirliyi arasında imzalanmış Əməkdaşlıq üzrə Yol Xəritəsində biznes forumların hər iki ölkədə mütəmadi təşkili nəzərdə tutulur. Nazir qeyd edib ki, hazırda xəstəxanaların təchizatının böyük əksəriyyətini Türkiyə istehsalı olan tibbi avadanlıq və alətlər təşkil edir: "Türkiyənin 1000-dən çox dərman vasitəsi Azərbaycanda dövlət qeydiyyatından keçib. Bu gün burada auditoriyada hər iki tərəfdən əczaçılıq sektorunun nümayəndələri, tibbi avadanlıq istehsalçıları, tibbi turizm nümayəndələri iştirak edirlər. Əməkdaşlığımızın bundan sonra da yüksələn xətlə davam edəcəyinə və Forumun investorlar üçün yeni imkanlar yaradacağına inanırıq. Səhiyyə sektorunda bu kimi qarşılıqlı fəaliyyətlər vətəndaşlarımızın səhiyyə sistemindən məmnunluğunun artırılmasına, əhalinin sağlamlığının yaxşılaşdırılmasına, həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edəcək".

"İlk dəfə təşkil edilən Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumu və sərgisi hər iki dövlətin əməkdaşlığa ən yüksək səviyyədə verdiyi dəstəyin növbəti təzahürüdür" - deyə Teymur Musayev əlavə edib. Nazir qeyd edib ki, "YAŞAT" fondu vasitəsilə 200 nəfərə yaxın həmvətənimiz Türkiyəyə müalicəyə göndərilib.

"Hazırda 700-dən çox türk tələbə Azərbaycan Tibb Universitetində təhsil alır. Türkiyəli həmkarlarımızla əməkdaşlıq COVID-19 pandemiyası dövründə daha intensiv hal aldı. Bununla yanaşı TURKOVAC vaksininin 3-cü faza sınaqları Azərbaycanda keçirilir. Türkiyə ilə münasibətlər Azərbaycan üçün xüsusi xarakter daşıyır. Türkiyə ilə əməkdaşlıq yalnız ikili formatda deyil, beynəlxalq müstəvidə də davam edir".

Nazirin sözlərinə görə, Qarabağ savaşı bitəndən indiyədək Türkiyəyə müalicəyə 200-ə yaxın Qarabağ müharibəsi iştirakçısı göndərilib.

O həmçinin bildirib ki, Azərbaycanda bu günə kimi Türkiyə istehsalı olan 1000-dən çox dərman vasitəsi qeydiyyatdan keçib: "TURKOVAC" vaksininin ölkə xaricində həyata keçirilən ilk klinik sınağı da Azərbaycanda aparıldı. Ümid edirəm ki, əczaçılıq sahəsində və yeni dərmanların sınağında ölkələr arasındakı əməkdaşlıq öz bəhrəsini verəcək".

**Şəymən**

# "Türkiyə modelini əsas götürməliyik"

## Mərdan Əliyev: "Onkoloji xəstəliklərin icbari tibbi sığortaya daxil edilməsi çox vacibdir"



**"Onkoloji xəstələr icbari tibbi sığorta ilə əhatə olunmayıb. Bununla bağlı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri ilə dəfələrlə danışmışam. Bu gün ən çox narahatlıq doğuran məsələ budur. Amma onkoloji xəstəliklərin müalicəsi çox bahalıdır və ona görə də icbari tibbi sığorta bunun altına girə bilmir".**

Bu barədə Milli Məclisin Səhiyyə komitəsinin iclasında komitənin sədri Əhliman Əmiraslanov danışıb. O qeyd edib ki, onkoloji xəstələrin müalicəsində hazırda istifadə olunan yeni dərmanların qiyməti çox yüksəkdir. "Tək bu deyil. Bu gün başqa sahələr, xəstəliklər var ki, icbari tibbi sığorta bunu əhatə etmir. Doğrudur, bu gün bir sıra xəstəlikləri icbari tibbi sığorta qarşılayır. Orqan və toxuma transplantasiyasının da bir hissəsini icbari tibbi sığorta götürür. Bu, müsbət haldır. Biz növbəti dəfə İTSDA ilə müzakirələrimiz zamanı insanları ən çox narahat edən sahələri müzakirə edəcəyik", - deyə o qeyd edib. Ə.Əmiraslanıv həmçinin onkoloji xəstəliklərin müalicəsinə dövlət büdcəsindən ayrılan vəsaitin azlığından da narazılıq edib: "Mən hər dəfə Azərbaycanda onkoloji xəstəliklərin müalicəsinə büdcədən ayrılan vəsaitin artırılması məsələsini qaldırıram. 10 ildir büdcədən ayrılan vəsait 42 milyon manatdır və bu miqdar artmır. Bu gün ölkədə böyük onkoloji klinikanın fəaliyyəti dayanmaq üzrədir. Çünki artıq oradakı avadanlıqların istifadə müddəti bitir. 10-15 ildir həmin avadanlıqlar dayanmadan işləyir. Amma büdcə müzakirələrində mən bu məsələni qaldıranda deyirlər, dürüstləşmədə baxılacaq və s. Amma bu vəsait artmır. Digər tərəfdən, büdcədən vəsaitin artması ilə bu problemin həlli mümkün deyil. Bunun həlli onkoloji xəstəliklərin də icbari tibbi sığorta vasitəsilə qarşılanmasıdır. Bu məsələ öz həllini tapmalıdır".

**Həkim-infeksionist Mərdan Əliyev "Şərq"ə açıqlamasında Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanovun onkoloji xəstəliklərin hələ də icbari tibbi sığorta zərfinə daxil edilməsindən doğan narahatlığının əsaslı olduğunu bildirdi:**

- Əlbəttə, bütün xəstəliklərin icbari tibbi sığorta paketinə daxil edilməsi əla olardı. Onkoloji xəstəliklərin icbari tibbi sığortaya daxil edilməsi isə xüsusilə çox vacibdir. Əvvəla, bu, böyük savab iş olar. Ona görə ki, onkoloji xəstəliklərdən ölüm göstəriciləri böyükdür. Bu xəstəliklər böyük məsrəf tələb edir. Onkoloji xəstəliyin müəyyənləşməsi birdən-birə ailə faciəsinə çevrilir. Bunu təsəvvürə gətirmək belə ağırdır. Xəstə bilmir, sağalacaq, ya yox. Özü də əziyyət çəkir, ailə üzvləri də. Müayinələr, müalicə kursu, kimya terapiya, əməliyyatlar... bunlar hamısı böyük xərc, böyük vəsait hesabına başa gələn məsələlərdir. Hər xəstənin buna maddi imkanı çatmır. Hepatit D xəstəliyi də həmçinin, böyük məsrəf tələb edir. Bu xəstəliyə qara ciyərdəki virus səbəb olur, virus qara ciyər üçün dağıdıcıdır. Nəticədə serroza çevirir. Bu xəstəliyin müalicəsi üçün il ərzində hər həftə 1 iynə vurulmalıdır. Hansı ki, qiyməti 180 manatdır. Hər həftə 180 manatlıq iynə almağa hər xəstənin maddi gücü yetərmi?!. Məhz məsrəf nəzərə alınmaqla bu xəstəlik də icbari tibbi sığortaya daxil edilməlidir. 180 manat bir ailə üçün böyük xərcdir, amma dövlət üçün böyük hesab edilməz. Dövlət bu məsrəfi qarşılamaq gücündədir. Çünki Hepatit D o qədər də geniş yayılmış xəstəlik deyil. Ümumilikdə, səhiyyə komitəsi sədrinin də dediyi kimi bütün xəstəliklər, xüsusən də onkoloji xəstəliklər icbari tibbi sığorta zərfinə daxil edilməlidir. Yəqin ki, zaman-zaman biz bunun şahidi olacağıq.

**Həkim qeyd etdi ki, Onkoloji Mərkəzə dövlət büdcəsindən ayrılan vəsaitin artırılması zəruridir:**

- Professorun dediyi kimi, daha dərin, ətraflı, daha mükəmməl müayinə üçün müasir avadanlıqların alınması və ondan istifadənin də icbari tibbi sığorta paketinə daxil edilməsi şərtdir. Əks halda onkoloji xəstələr bu avadanlıqla müayinə oluna bilməyəcək, qiymət yüksək olacaq. Hesab edirəm ki, icbari tibbi sığortada Türkiyə modelini əsas götürməliyik. Uzun illərdir ki, Türkiyədə bu sistem tətbiq edilir, təcrübələri böyükdür.

**Məlahət Rzayeva**



# Ordumuz hazırlıqlı vəziyyətdə olmalıdır

## Sülh müqaviləsi imzalansa belə, ermənilər təxribatlarını davam etdirəcək

**"Ermənistan təxribatlardan əl çəkməzsə, Azərbaycan Silahlı Qüvvələrinin daha sərt reaksiyası ilə qarşılaşacaq. Düşmən tərəfin ağır itkiləri ilə nəticələnəcək. Azərbaycan heç bir halda məğlub tərəf olan Ermənistanın kənardan maliyyələşən qüvvələrin dəstəyilə həyata keçirdikləri təxribatlara, şıltaqlıqlara dözmək niyyətində deyil".**

*Bu sözləri "Şərq"ə açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. Onun sözlərinə görə, Ermənistan mövcudluğunu şübhə altına salmaq niyyətindədirsə, təxribatlara davam edə bilər:* "Provokasiyaların yekunlaşması mürəkkəb məsələdir. Ermənistanda hələ də revanşist qüvvələr var. Həmin qüvvələrə Azərbaycana qarşı fəaliyyət göstərmək üçün dəstək verən böyük dövlətlər mövcuddur. Revanşistlərin hakimiyyətə gəlməsindən ötrü təxribatların törədilməsi, eləcə də, erməni müxalifətinin maraqlarına uyğundur. Sülh müqaviləsi imzalansa belə, provokasiyaların kiçik miqyasda baş verməsini heç kim istisna edə bilməz. 30 ildəki təcrübə bunu iddia etməyə əsas verir".

*Qeyd edək ki, Zəngilan istiqamətində kiçik sərhəd hadisəsi baş verib. Üç erməni silahlısı göstərilən istiqamətdə postlarımızdan birinə hücum edib. Sərhədçilərimizin xəbərdarlıq atəşindən sonra onlar mövqeyimizi atəşə tutublar. Azərbaycan Dövlət Sərhəd Xidmətinin bölmələrinin cavab atəşi nəticəsində hücum edənlərdən biri yaralanıb.*

*Erməni tərəfi hərbi kanallar vasitəsilə hadisəyə görə üzr istəyib, həmin şəxslərin sərxoş vəziyyətdə olduğunu və belə bir hadisənin komandanlıqla heç bir şəkildə razılaşdırılmadığını qeyd edib. İnsident aradan qaldırılıb, hazırda sərhəd bölgəsində vəziyyət sakitdir.*

**Aygün Tahir**

# Rusiyada səfərbərlik ölkədə xaos yaradıb

## Savaşa getmək istəməyənlər ölkədən çıxmaq qərarına gəliblər

**Rusiya Prezidenti Vladimir Putinin ölkədə qismən səfərbərlik elan etməsi əhali tərəfindən heç də birmənalı qarşılanmayıb. Vətəndaşların bir qismi mövcud vəziyyətə etiraz etsələr də, digər bir qismi çıxış yolunu ölkəni tərk etməkdə tapıb. Məhz bu səbəbdən də, dövlət başçısının məlum çıxışından sonra rusiyalıların ölkədən kütləvi qaçışı başlayıb. Qonşu ölkələrə üz tutan rusiyalılar Gürcüstanla sərhəddə tıxaca səbəb olublar. Rusiya-Finlandiya sərhədində də analoji vəziyyət hökm sürüb.**

Qərara etiraz olaraq küçələrə çıxanlarla polislər arasında qarşıdurma yaşanıb. Paytaxt Moskva ilə yanaşı, Sankt-Peterburq, Yekaterinburq, Tver kimi şəhərlərdə də etirazlar təşkil olunub. Etirazçılar "Müharibəyə Yox!" şüarı səsləndiriblər. Təhlükəsizlik qüvvələri mitinqlərdəki fəalları həbs edərək, aksiyaları dağıtmaq məqsədilə iştirakçılara qarşı zorakı üsullar tətbiq ediblər. Səfərbərliyə qarşı keçirilən aksiyaya görə 1026-dan çox adam saxlanılıb. Məlumat üçün qeyd edək ki, ötən gün Rusiya rəhbəri xalqa müraciət edib və ölkədə qismən səfərbərlik elan olunduğunu bildirib. Müdafiə naziri Sergey Şoyqu deyib ki, ehtiyatda olan 300 min hərbçi orduya çağırılacaq. Bundan başqa, Putin nüvə silahından istifadə edə biləcəklərini istisna etməyib. Başqa bir məqam isə Rusiyanın işğalı altında olan Luqansk, Donetsk, Zaporejye vilayətlərində "referendum" keçirilməsi ilə bağlı qərardır. Ekspertlərə görə, hər üç məsələ kifayət qədər ciddidir. Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, faktiki olaraq NATO ilə qarşıdurma yarandığı üçün qismən səfərbərlik qərarı elan olunub: "De-fakto Rusiya NATO-ya qarşıdurmadadır. Bu, qismən səfərbərlik elan etmək zərurətinə səbəb olub". Onun sözlərinə görə, qismən səfərbərlik elan edildikdən sonra da Ukraynadakı xüsusi əməliyyatın statusu dəyişməyəcək və müharibə sayılmayacaq. Peskov onu da bildirib ki, hökumət qismən səfərbərlikdən kimin möhlət hüququna malik olduğunu müəyyən edən sənəd hazırlayır. Kremlin sözçüsü aeroportlarda yaşanan ajiotajla bağlı məlumatların çox şişirdildiyini söyləyib. Yakutiyanın hərbi komissarı Aleksandr Avdonin bildirib ki, Rusiyada səfərbərliklə orduya çağırılanlar 3300 dollardan çox maaş alacaq. O deyib ki, səfərbərliyə çağırılan bütün vətəndaşlar müqavilə üzrə hərbi qulluqçulara bərabər tutulur.




*Cümşüd Nuriyev: "Putinin qərarı Rusiyanın hərbi doktrinasına, həm də mövcud qanunvericiliyinə ziddir. Kreml rəhbəri Ukraynadakı savaşı israrla "xüsusi əməliyyatlar" adlandırsa da, bu, müharibədir"*

Ayrı-ayrı dünya liderləri, nüfuzlu beynəlxalq təşkilatların başçıları Putinin sözügedən bəyanatlarına artıq münasibət bildiriblər. Ümumi fikir belədir ki, Putin məğlubiyyətini etiraf etməyə başlayıb. Məsələ ondadır ki, İkinci Dünya müharibəsindən bəri Rusiyada səfərbərlik elan edilməyib. Üzərindən təxminən 80 il keçdikdən sonra yenidən oxşar addım atılırsa, deməli, doğrudan da, Rusiya ordusunda şəxsi heyət çatışmazlığı var. Hərbi ekspertlərin fikrincə, 300 min hərbçinin orduya çağırılması bu rəqəmin ən azı yarısı qədər, yəni 150 min hərbçinin məhv edildiyi anlamına gəlir. ABŞ dövlət katibi Entoni Blinken də deyib ki, Putinin Rusiyada qismən səfərbərlik elan etməsi rus qoşunlarının Ukraynadakı müharibədə mövqeyinin zəifliyindən xəbər verir: "Putin öz zəifliyini nümayiş etdirdiyi kimi, ölkəsinin və qoşunlarının da zəifliyini nümayiş etdirdi. Ukraynada Rusiya hərbi qüvvələrini artırmaq çağırışı Rusiyanın döyüş meydanında apardığı mübarizəni və Prezident Putinin güc deyil, zəiflik mövqeyindən fəaliyyət göstərdiyini əks etdirir".

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə deyib ki, Putinin qismən səfərbərlik elan etməsi həm Rusiyanın hərbi doktrinasına, həm də mövcud qanunvericiliyinə ziddir. Professor bildirib ki, Kreml rəhbəri Ukraynadakı savaşı israrla "xüsusi əməliyyatlar" adlandırsa da, bu, müharibədir:** "Rusiya qismən səfərbərlik elan etməklə Ukraynada apardığı müharibəni rəsmən etiraf etdi. Savaşa getmək istəməyən ruslar ölkədən çıxmaq qərarına gəliblər. Daha doğrusu, artıq ölkəni tərk edirlər. Rusiya sərhədlərində növbələr var və ruslar kütləvi şəkildə qaçmağı planlaşdırırlar. Yayılan videolardan aydın olur ki, hökumət orqanları müxtəlif üsullarla ölkədən çıxmaq istəyən insanların gedişinə mane olmağa çalışır. Amma buna nail olmaq çox çətindir, çünki Rusiyada kütləvi aksiyalar başlayıb.

Qərb də sanksiyalarla Rusiyanı daha da aqressivləşdirir. Putin səhv hərəkət etdiyinin fərqindədir. Rusiya bataqlıqdadır, yavaş-yavaş batır və buradan çıxmaq ehtimalı çox azdır. Səfərbərlik elanı da anlaşılmazdır. Hökumət qərar verib ki, ancaq 18-30 yaş aralığı insanlar səfərbərliyə cəlb olunsun. Amma 50 yaşa kimi zabitləri də məcburi orduya çağırırlar".

**C.Nuriyevin sözlərinə görə, Rusiyanın başqa bir dövlətin ərazisində "referendum" keçirməsinin heç bir əsası yoxdur:** "Heç Krımda keçirilən "referendum"un belə hüquqi əsası yoxdur. Əslində bu cür qanunsuz "referendumların" nəticələri də saxtadır. Çünki Rusiya səs verənlərin deyil, səsləri sayan kəşfiyyat orqanlarının bəyanını əsas götürür. Rusiya 7 ay ərzində sanksiyalara bir qədər alışdığı üçün çöküşünün bir qədər gec olacağı qənaətindəyəm. Buna baxmayaraq, Rusiya çox ciddi problemlərlə üz-üzədir və siyasi-iqtisadi vəziyyət ağırlaşmaqda davam edir".

**İsmayıl Qocayev**

**BMT Təhlükəsizlik Şurasının üzvlərinin sayının artırılması məsələsini ən çox qaldıran Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandır. Məhz Türkiyə lideri imkan düşdükcə Təhlükəsizlik Şurasının 5 daimi üzvünü nəzərdə tutaraq "dünya 5-dən böyükdür" ifadəsini işlədir.**



Ərdoğan BMT Təhlükəsizlik Şurasının üzvlərinin sayının artırılmasını zəruri hesab edir. ABŞ Prezidenti Cozef Bayden də BMT Baş Assambleyasında son çıxışı zamanı Ərdoğanın fikrini təkrarlayıb: "BMT Təhlükəsizlik Şurasının üzvlərinin sayını artırmaq lazımdır". Baydenin fikrincə, BMT Təhlükəsizlik Şurasının həm daimi, həm də qeyri-daimi nümayəndələrinin sayının artırılmasına ehtiyac var. ABŞ prezidenti Afrika, Latın Amerikası və Karib hövzəsi ölkələri üçün BMT Təhlükəsizlik Şurasında yerlərin ayrılmasını zəruri sayıb.

# Bayden Ərdoğanın təklifini dəstəkləyir

## BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin sayı artırılmalıdır

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Ağ Ev sahibi BMT Təhlükəsizlik Şurasının üzvlərinin fövqəladə hallar istisna olmaqla, veto hüququndan istifadə etməkdən çəkinməli olduğunu bildirib. Analitikə görə, Bayden bunu ona görə deyib ki, Qərb ölkələrinin bütün təkliflərini adətən Rusiya və bir sıra hallarda Çin BMT Təhlükəsizlik Şurasında veto hüququndan istifadə edərək reallaşmasına imkan vermirlər:** "Bayden BMT Təhlükəsizlik Şurasının "etimada layiq və səmərəli fəaliyyət göstərən" bir qurum olaraq qalması üçün belə tədbirlərin zəruri olduğuna diqqət çəkib. ABŞ prezidenti bu cümləsiylə etiraf edib ki, BMT-nin həm etimadı, həm də səmərəli fəaliyyəti şübhə altındadır. Amerika və Türkiyə ilə yanaşı Yaponiya, Hindistan, Afrika və Latın Amerikası ölkələri də BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin sayının artırılması ideyasını dəstəkləyirlər. Türkiyə, Yaponiya və Hindistan Təhlükəsizlik Şurasının üzvlüyünə iddialıdırlar. Afrikanın və Latın Amerikasının aparıcı ölkələri - Misir, Cənubi Afrika Respublikası və Braziliya kimi ölkələr də haqlı olaraq Təhlükəsizlik Şurasının üzvü olmaq istəyirlər".

**"İdeyanı dəstəkləyən liderlər çox olsa da, bunun reallaşması xeyli müşküldür"**

**E.Şahinoğlu düşünür ki, Bayden və Ərdoğan Təhlükəsizlik Şurasının daimi üzvlərinin sayının artırılması ideyasını dəstəkləsələr də, bunun reallaşması problematikdir:** "Məsələn, Türkiyənin Təhlükəsizlik Şurasına üzvlüyünü Fransa, Hindistanın üzvlüyünü isə Çin əngəlləyəcək. Rusiyanın özü də Təhlükəsizlik Şurası üzvlərinin sayının artırılmasının tərəfdarı deyil. Çünki Kreml Təhlükəsizlik Şurasında ABŞ-ın dostlarının və tərəfdaşlarının sayının artırılmasını istəmir".

**İsmayıl Qocayev**

# Rusiya heç vaxt nüvə silahını tətbiq edə bilməyəcək

## Çünki Kreml yaxşı bilir ki, NATO-nun onun qarşısını almaq üçün kifayət qədər potensialı var

**NATO Baş katibi Yens Stoltenberq mediaya açıqlamasında Rusiyaya tətbiq olunacaq sanksiyalardan danışıb. O qeyd edib ki, indi NATO ölkələri Rusiyaya təzyiqi artırmaq və yeni sanksiyalar tətbiq etmək niyyətindədir:**



"Biz Rusiya nüvə qüvvələrinin hazırlıq vəziyyətində hələ ki, heç bir dəyişiklik müşahidə etməmişik. Amma durumu diqqətlə izləyirik. NATO ölkələri özlərinə və Kiyevə silah tədarükünü artırmaq üçün hərbi-sənaye müəssisələrilə fəal danışıqlar aparır".

**Stoltenberqin açıqlamasını şərh edən Azərbaycan Demokrat Partiyasının sədr müavini Həsrət Rüstəmov "Şərq"ə bildirib ki, bu bəyanat Rusiya dövlət başçısı Vladimir Putinin nüvə təhdidi ilə bağlı son çıxışına cavabdır:** "Rusiya-Ukrayna müharibəsi başlayanda dünya ölkələri rəsmi Moskvanın nüvə silahından istifadə etməsindən təşviş keçirirdilər. İndi isə həmin ölkələr Rusiyanın bu addımı atmayacağından daha arxayındırlar.

Hətta Rusiyanın öz ekspertləri də Putinin nüvə təhdidi ilə bağlı sonuncu çıxışını çox qeyri-ciddi bəyanat kimi dəyərləndirirlər. Bu sahənin mütəxəssisləri elə hesab edirlər ki, Rusiya heç vaxt nüvə silahını tətbiq edə bilməyəcək.

Çünki o bilir ki, NATO-nun onun qarşısını almaq üçün kifayət qədər potensialı var. Bu baxımdan elə hesab edirəm ki, Putin bununla Ukraynanı qorxutmaq niyyətinə nail ola bilmədi. Əksinə, Rusiyanın özündə çaxnaşma yarandı. Ümumiyyətlə, hazırkı Putin siyasətinin sonu uğurlu görünmür. Bu siyasət Putinin özü üçün yox, yalnız Rusiya xalqı üçün müsbət nəticələnəcək" .

*Qeyd edək ki, elə bu dəqiqələrdə Rusiya Federasiyası Təhlükəsizlik Şurası rəhbərinin müavini Dmitri Medvedyev bildirib ki, Rusiya öz müdafiəsi üçün istənilən silahdan, o cümlədən strateji nüvə silahlarından istifadə edə bilər.*

**Günəş Mərd**



# İrəvanı məcbur edəcəyik

## "Azərbaycan tərəfi nəzərdə tutduğu layihələrini mütləq həyata keçirəcək"

***"Bölgənin kommunikasiya xətləri açılmalıdır. Bütün hallarda buna mane olacaq hansısa bir iradə ortaya qoymaq mümkün deyil"***

**Prezident İlham Əliyev Laçın şəhərində Azərbaycan bayrağını ucaldıb və bundan sonra olduqca əhəmiyyətli mesajlar verib.**

Çıxışı zamanı bir sıra məsələlərə toxunan dövlət başçısı vurğulayıb ki, gələn ilin sonunda Ermənistan sərhədinə həm dəmir, həm avtomobil yolunu gətirəcəyik: "Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi. Bu günə qədər nəinki dəhliz verilməyib, hətta dəhlizin marşrutu bizə deyilməyib.

Heç bir praktiki iş aparılmayıb. Biz isə indi dəmir yolunu, eləcə də avtomobil yolunu Zəngilana qədər çəkmişik. Gələn ilin sonunda Ermənistan sərhədinə həm dəmir yolunu, həm avtomobil yolunu gətirəcəyik".

**Millət vəkili Fazil Mustafa dövlət başçısının çıxışını "Şərq"ə şərh edərkən bildirib ki, Ermənistan razı olsa da, olmasa da Azərbaycan tərəfi nəzərdə tutduğu layihələrini mütləq həyata keçirəcək:** "Bu zaman Ermənistanla toqquşma nöqtəmiz olsa, onları məcbur edəcəyik. Çünki bölgənin kommunikasiya xətləri açılmalıdır. Bütün hallarda buna mane olacaq hansısa bir iradə ortaya qoymaq mümkün deyil. Rəsmi Bakı nə düşünürsə, onu da reallaşdıracaq. Ermənistanın buna mane olma cəhdləri var, amma faydasızdır. Onlar Zəngilandan dəmiryolu xəttinin çəkilməsini də istəmirdi.

Buna baxmayaraq həmin dəmir yolunun çəkilişi uğurla sona çatdı. İndi rəsmi İrəvan bütün bunları nəzərə alaraq addım atmalıdır".

**Günəş Mərd**

# Manatın taleyi Mərkəzi Bankdan asılıdır

## FED-in kəskin artım qərarı birjaları silkələməkdə davam edir

**ABŞ-ın Federal Ehtiyat Sistemi (FED) uçot dərəcəsini 75 baza bənd artıraraq 3,25 faizə yüksəldib. Bu 1994-cü ildən bəri ən yüksək artımdır. İnflyasiyanı tənzimləmək üçün FED uçot stavkasını yüksəltməkdə israrlı görünür. FED-in qərarı birjalara təsirsiz ötüşməyib.**

Avro 20 illik minimuma qədər ucuzlaşıb. Yaponiya valyutası son 25 ildə ən aşağı məzənnə ilə satılır. Böyük Britaniya funt sterlinqi isə 1985-ci ildən bəri ən aşağı kursla təklif olunur. Digər səbət valyutalar da dollara nisbətən ucuzlaşmaqdadır. Dollar birjalarda son 24 ildə ən yüksək məzənnə ilə alınıb-satılır.

**Millət vəkili Vüqar Bayramov deyib ki, FED-in kəskin artım qərarı birjaları silkələməkdə davam edir. Deputat vurğulayıb ki, anti-inflyasiya aləti kimi istifadə edilən uçot dərəcəsi ABŞ puluna dəyər gətirsə də, Amerika qiymət artımlarını hələ də optimallaşdıra bilməyib:** "ABŞ-da illik inflyasiya 8.3 faizədək yüksəlib ki, bu da son 40 ildə ən pis göstəricidir. Azərbaycanda da dollar bahalaşa bilərmi? Əvvəllər də qeyd etdiyimiz kimi, manatın məzənnəsinə ölkəyə daxil olan valyutanın həcmi, xüsusən də Dövlət Neft Fondu tərəfindən hərraca çıxarılan valyutanın məbləği təsir göstərir. Neft Fondunun hərraca çıxartdığı vəsaitlərin həcmi dollara olan tələbin ödənilməsində çox önəmlidir. Bu da təbii ki, manatın məzənnəsi baxımından vacib hesab olunur. Təbii ki, xarici ticarət tərəfdaşlarımızda milli valyutalarının məzənnələrindəki dəyişikliklər də iqtisadi faktorlardan biridir. Bütün bunlar ilə yanaşı, Azərbaycan üzən məzənnə rejiminə keçmədiyi üçün manatın məzənnəsi birbaşa Mərkəzi Bankın qərarından asılıdır. Mərkəzi Bank prosesə tam intervensiya imkanlarını qoruyub saxlayır. Ona görə də manatın məzənnəsinin necə dəyişməsi birbaşa Azərbaycan Mərkəzi Bankının mövqeyindən asılı olacaq".




**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**

# Mətbuat Şurası fəaliyyətini müasir tələblərə və çağırışlara uyğunlaşdıracaq

## "Qurultaydan təkcə jurnalistlərin deyil, ümumilikdə cəmiyyətin böyük gözləntiləri var"

**Mətbuat cəmiyyətin aynasıdır. Əgər mətbuat cəmiyyətin aynasıdırsa, cəmiyyətdə baş verən dəyişikliklər mətbuatın, o cümlədən Mətbuat Şurasının da fəaliyyətində öz əksini tapmalıdır. Mətbuat Şurasının 24 sentyabr tarixində keçiriləcək VIII qurultayından da gözləntilər əsasən bu istiqamətdədir.**

Cəmiyyətin Mətbuat Şurasının yeni seçiləcək sədr və idarə heyətindən ümidləri böyükdür. Hesab edirlər ki, Mətbuat Şurasının bütün media ictimaiyyətinin fikirlərini ifadə edən İdarə Heyəti formalaşmalıdır.

Bəs hansı dəyişikliklər və yeniliklərə yer veriləcək? 8-ci qurultayda kimlərin seçilməsi daha məqsədəuyğundur?

Qeyd edək ki, MŞ İdarə Heyətinə namizədlərin siyahısı olub. Təşkilat Komitəsi yekun seçki bülleteninə ən çox səs toplamış 46 namizədin adını daxil edib. Qeyd edək ki, qurultayda MŞ İdarə Heyətinə 28 jurnalist namizəddən 14-ü, 18 ictimaiyyət nümayəndəsi olan namizəddən isə 9-u seçiləcəkdir.

**"İslahatçı Gənclər" İctimai Birliyinin sədri, Editor.az xəbər portalının baş redaktoru Fərid Şahbazlının sözlərinə görə, Azərbaycan jurnalistlərini bir araya gətirən, onların fəaliyyətini koordinasiya etmək funksiyası daşıyan, peşə etik kodeksi qaydalarını hazırlayan jurnalistlərin özünütənzimləmə qurumu olan Mətbuat Şurasının qurultayı media camiyəsində ciddi maraq oyadır.** Şuranın idarəetməsində bir neçə dəyərli ziyalılarımız istisna olmaqla digər ənənəvi şəxsləri mütəmadi olaraq görürük. Bu baxımdan da Azərbaycan Mətbuat Şurasının idarəetməsində gənc media mütəxəssisləri, media kapitanları, gənc jurnalistlər də təmsil olunmalıdır: "Hesab edirəm ki, gənc jurnalistlərin Şuraya seçimi Mətbuat Şurasının inkişafı üçün zəruridir, vacibdir. Mətbuat Şurası qloballaşan dünyada, sürətlə inkişaf edən media camiyəsində özünə bir mövqe qazanmaq, Azərbaycan jurnalistlərinin birləşdiyi bir qurum olmaq, Azərbaycan jurnalistlərinin tribunası olmaq istəyirsə, ondan maksimum çeviklik, operativlik və innovativlik tələb olunur. Bunlara da gənclər olmadan nail olmaq, hesab edirəm ki, mümkün deyil. Biz Mətbuat Şurasında orta yaşlı nəslin təcrübəsi ilə gəncliyin enerjisini birləşdirməliyik. Mən hesab edirəm ki, buna nail olsaq, yaxşı nəticələr əldə edə bilərik. Eyni zamanda, Azərbaycanda gənc olmasına baxmayaraq kifayət qədər təcrübəli,








yalnız ölkə daxilində hansısa bir media strukturuna rəhbərlik etməklə kifayətlənməyib, beynəlxalq əlaqələr qura bilən, xarici kütləvi informasiya vasitələrində yazıları, məqalələri dərc olunan, Azərbaycanın haqq səsini dünyaya çatdırmaq imkanları olan gənclər var. Məncə, Mətbuat Şurası bu imkanlardan istifadə etməlidir. Biz gənc dedikdə heç də adı gənc olub, yanaşması əsrlər öncəyə aid olan istedadsız, bacarıqsız insanları nəzərdə tutmuruq. Gənc olmaq burada kriteriyalardan biridir, amma həlledici kriteriya deyil. Biz Şurada gənc və istedadlı insanları görmək istəyirik. Ümid edirik ki, onlar Azərbaycan media camiyəsinin gənc istedadlı siması olmağı bacaracaqlar. Mətbuat Şurası jurnalistlərin yanında olmağı bacarmaqla bərabər, beynəlxalq əməkdaşlıq imkanlarını da genişləndirməlidir. Əgər MŞ dövlət qurumları arasında nüfuzunun yüksəlməsini, sözünün eşidilməsini istəyirsə, ətrafına məhz bacarıqlı, istedadlı, öz fikri, yanaşması olan insanları toplamalıdır".

**Azxəbər.com informasiya portalının baş redaktoru Hacıbəy Heydərli isə "Şərq"ə açıqlamasında deyib ki, Mətbuat Şurası fəaliyyət göstərdiyi 19 il ərzində çox böyük işlər görüb, dövlət qurumları ilə jurnalistlər arasında körpü rolunu oynayıb, həssas məqamlarda ortaya konkret mövqe qoyub və jurnalistlərin problemlərinin həllinə çalışıb:** "Amma dəyişiklik çox mühümdür. Mətbuat Şurasının növbəti qurultayından təkcə Azərbaycan jurnalistlərinin deyil, ümumilikdə cəmiyyətin çox böyük gözləntiləri var. Son bir neçə ildi Azərbaycan mətbuatında ciddi islahatlar gedir. Medianın İnkişafı Agentliyinin yaradılması mətbuatımıza yeni nəfəs, yeni yanaşma gətirib. Agentlik tərəfindən həyata keçirilən layihələr, təlimlər, jurnalistlərin işğaldan azad edilmiş bölgələrə səfərlərinin təşkil edilməsi cəmiyyətin mediaya inamını bərpa edib. Belə bir vəziyyətdə Mətbuat Şurasının fəaliyyətsiz bir qurum kimi qalması ürəkaçan deyildi. Ümid edirəm ki, Mətbuat Şurasının yeni sədri və idarə heyəti də bu prosesə dəstək olacaq. Jurnalistlərin sosial problemləri, reklam bazarındakı durğunluq, sosial mediaya inteqrasiya, intensiv təlimlər ön planda olacaq.

Mətbuat Şurası bu qurultaydan sonra öz fəaliyyətini müasir tələblərə və çağırışlara uyğun qurmalıdır. Bu həm qurum üçün, həm də cəmiyyətimiz üçün çox vacibdir: "Düşünürəm ki, qurumun idarə heyətində mütləq gənc jurnalistlər və innovativ insanlar yer almalıdırlar. Biz orta və yaşlı nəslin zəngin təcrübəsi ilə gənc nəslin dinamikasını, çevikliyini bir araya gətirməliyik. Mətbuat Şurası sosial media ilə aktiv iş qurmalıdır, bir növ dışlanmış sosial media subyektləri bu quruma inteqrasiya edilməlidir. Belə olan halda biz sosial mediadakı saxta xəbərlərin, dezinformasiyaların, yalan məlumatların da qarşısını ala bilərik.

Sosial şəbəkələrdə aktiv olan, Azərbaycanın haqq səsini dünyaya çatdıran, beynəlxalq əlaqələri yüksək olan gənc jurnalistlərin qurumda təmsil olunması həm Mətbuat Şurası, həm də Azərbaycan jurnalistikası üçün böyük bir qazanc olacaq.

Ümid edirəm ki, seçkilər demokratik və ədalətli şəkildə keçiriləcək. Cəmiyyətimiz və mətbuatımız artıq eyni simaları görməkdən yorulublar. Biz orada təmsil olunan şəxslərin fəaliyyətinin üstündən xətt çəkmirik. O şəxslərin əksəriyyətinin jurnalistikamızın inkişafında çox böyük xidmətləri olub. Amma dövrün tələblərinə də ayaq uydurmaq lazımdır. Sosial mediada aktiv olan, bu sahə üzrə dünya təcrübəsinə bələd, ölkənin ictimai rəyə təsiri olan şəxslərin qurumda təmsil olunması ən böyük gözləntilərdən biridir.

Bu arada Mətbuat Şurasının İdarə Heyətinə namizədlərin siyahısında öz adımı da görmək çox xoş oldu. Mənə səs verən 63 həmkarımın hər birinə təşəkkür edirəm. Əgər İdarə heyətinə üzv seçilsəm, onların səsi olacam və sosial şəbəkə subyektləri ilə dövlət qurumları arasındakı anlaşılmazlıqların kordinasiyasına çalışacam".

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Referendum uğursuz strategiyadır

## Rusiya şanslarını tamamilə itirəcək

**"Rusiyanın Ukrayna savaşı ilə bağlı strateji planları tam şəkildə iflasa uğrayıb". Bu barədə "Şərq"ə siyasi şərhçi Elçin Xalidbəyli bildirib. Onun sözlərinə görə, Kreml savaşa başlayarkən bütün Ukrayna ərazilərinin işğal edilməsini hədəflədi:**

"Ancaq bu, baş tutmadı, Rusiyanın gücü çatmadı. Ona görə də Kreml hədəflərini ciddi şəkildə kiçiltdi. Ukraynanın Rusiya ilə sərhəd bölgələrini işğal etməyini qarşısına əsas məqsəd qoydu.

Lakin rəsmi Kiyev ordusunun müdafiə taktikasını dəyişib, hücuma keçməsindən sonra rəsmi Moskva ümumiyyətlə, zəbt etdiyi əraziləri itirmək təhlükəsi ilə üzləşdi. Ona görə də Kreml biabırçı hərbi məğlubiyyətdən xilas olmaq, Rusiya ordusunun ələ keçirdiyi ərazilərin bir qismini öz nəzarətində saxlamaq üçün yollar axtarır. Eyni zamanda Ukraynanın işğal altında olan torpaqlarında Rusiyaya birləşməklə bağlı referendum keçirmək niyyəti də məhz bu məqsədi daşıyır.

Məsələ ondadır ki, ABŞ və Qərb rəsmi Kiyevə Rusiya ərazisinə hərbi zərbələr endirmək imkanları açan silahları vermir. Üstəlik, savaşın rəsmi Moskvanın ərazisinə keçirilməsi cəhdlərini də dəstəklədiyini bəyan edir. Bu, Kremli referendum ideyasına həvəsləndirir.

Çünki Rusiyada hesab edirlər ki, referendum vasitəsilə Ukraynanın işğal olunmuş əraziləri şimal qonşumuza birləşdirilərsə, rəsmi Kiyevin hərbi əməliyyatları məhdudlaşa və zəifləyə bilər. Guya bu referendum ilə zəbt olunmuş Ukrayna əraziləri Rusiya ərazisi sayılacaq. Həmçinin Qərb rəsmi Kiyevə hərbi əməliyyatları məhdudlaşdırmaq təlimatı verəcək.

Təbii ki, bu, o qədər də real strategiya təsiri bağışlamır. Əksinə, Kreml referendum avantürası ilə Ukrayna savaşına başlayarkən buraxdığı səhvləri növbəti dəfə təkrarlamış olacaq. Dünya dövlətləri Rusiyanın Ukraynada keçirəcəyi qeyri-qanuni referendumun nəticələrini qətiyyən tanımazlar. Çünki məlum "ümumxalq səsverməˮ Rusiyanın Ukrayna ərazilərini ələ keçirməsinə hüquqi don geyindirmək cəhdidir.

Kreml referendum avantürasında israrlı olarsa, bu, Rusiyanın beynəlxalq məkanda daha sərt şəkildə ittiham edilməsinə səbəb yarada bilər. Sözügedən avantüra ilə Rusiya müəyyən güzəştlər çərçivəsində sülh sazişinə nail olmaq şanslarını tamamilə itirəcək.

Bütün bunlara baxmayaraq, imperiya modelli mövcudluq ənənəsinə malik olan Rusiya əlindəki son variantları da istifadə etməyə çalışır. Kremldə tamamilə əmindirlər ki, Ukrayna savaşından məğlub və itkilər ilə ayrılarsa, Rusiya adlı dövlət tədricən süquta uğrayacaq. Ona görə də ən avantürist metodlarla belə, müqavimət göstərməyə səy göstərir. Kremlin zənnincə, keçmiş SSRİ-ni dağıdan ABŞ və Qərb eyni taktikanı Rusiyaya qarşı da tətbiq edir.

Yeni Kreml Rusiyanı xilas etmək üçün bütün vasitələrdən, yollardan, o cümlədən də, referendum avantürasından istifadə etməyə cəhd edəcək. Ancaq "ümumxalq səsverməninˮ nəticələri beynəlxalq səviyyədə tanınmayacaq. Əksinə, Rusiya daha ağır zərbələrlə üzləşəcək".

**Sücayət Mehti**

# Saxta profillər meydan sulayır

## Sosial şəbəkələr mütləq qanunla tənzimlənməlidir

**Deputat Elman Nəsirov "Sosial şəbəkələr haqqında" qanun layihəsinin hazırlanmasını təklif edib. Sosial şəbəkədə insanların təhqir edilməsindən, böhtan atılmasından narahatlığını ifadə edən millət vəkili deyib ki, sosial şəbəkə cəngəllik qanunları ilə idarə olunur. Bütün bunları nəzərə alaraq "Sosial şəbəkələr haqqında" qanun layihəsinin hazırlanmasına başlamalıyıq.**

*Media eksperti Azər Həsrət bildirib ki, sosial şəbəkələrlə bağlı təkcə Azərbaycanı deyil, bütün dünyanı narahat edən bir durum var:* "Əksər ölkələrdə, o cümlədən Azərbaycanda sosial şəbəkələrlə, sosial şəbəkələrdəki hərc-mərclikə bağlı tədbir görülməsi çətinliklərlə müşayiət olunur. Yəni dövlət belə hallar olanda tam olaraq necə davranacağını müəyyənləşdirə bilməyib. Bunun səbəbi odur ki, bu sahəni əhatə edəcək əsaslı qanunlar demək olar ki, yoxdur. Düzdür, müəyyən qanunlar var, konkret maddələr var. Bunları bilirik, amma ümumilikdə bu sahəni tənzimləyəcək qanunvericilik yetərli deyil. İllərdir ki, bir fikir səsləndirirəm və qanun təşəbbüsü olaraq, orada da yer almasını istərdim. "Sosial media istifadəçilərinin qeydiyyatı şəxsiyyət vəsiqəsi və ya pasportla həyata keçirilməlidir", - deyə bir maddə olmalıdır. Yəni insanların saxta profillər altında sosial media üzərindən fəaliyyət göstərməsinin qarşısı alınmalı, birmənalı şəkildə əngəllənməlidir.



***"Sosial media istifadəçilərinin qeydiyyatı şəxsiyyət vəsiqəsi və ya pasportla həyata keçirilməlidir"***

Bu təklif, bu fikir təkcə Azərbaycanda deyil, ABŞ da başda olmaqla, dünyanın bir çox ölkələrində illərdir, müzakirə olunur. Təəssüflər olsun ki, hələ də bu istiqamətdə real addımlar atan ölkələr yoxdur. Düzdür, indi belə qanun qəbul etsək, müəyyən qara qüvvələr üstümüzə gələcək. Amma nəzərə almaq lazımdır ki, ifadə azadlığı həm də məsuliyyət, dürüstlük, ədəb, çərçivə deməkdir. Bütün bunlardan yayınmaq istəyən insanlar saxta adlar altında sosial mediada qeydiyyatdan keçir və digər istifadəçiləri narahat edir. Ona görə də qanun qəbul edilməsinin tərəfdarıyam".

**Şəymən**

# Şəhərdə təcrübəsiz sürücülər hədsiz çoxalıb

## Ancaq yol qəzalarında piyadaların da səhlənkarlığı az deyil



**Son vaxtlar yol-nəqliyyat hadisələrinin sayı kəskin artıb. Xüsusilə, bir neçə nəfərin öldüyü ağır yol-nəqliyyat hadisələri artmaqdadır. Respublika əhəmiyyətli yollarda belə hallar daha çox baş verir. 2022-ci ilin yanvar-iyun aylarında ölkədə 817 və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 8,1 faiz çox yol-nəqliyyat hadisəsi baş verib. Baş verən hadisələr nəticəsində zərər çəkən şəxslərin sayı 12,2 faiz artaraq 1109 nəfər olub.**

**Nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov isə "Şərq"ə açıqlamasında deyib ki, şəhərdə təcrübəsiz sürücülər hədsiz çoxdur. Onlar yollarda təhlükəsiz manevrlər edib təhlükəli vəziyyət yaradırlar.** Bununla belə ekspertə görə, qəzaların baş verməsində tək həmin sürücülər günahkar deyil. Piyadaların da səhlənkarlığının payı var. E.Cəfərov həmçinin ölkəmizdə bir çox yolların bərbad vəziyyətdə olduğunu bildirib. Onun sözlərinə görə, yollardakı vəziyyət bir çox hallarda qəzalara gətirib çıxarır: "Burada yolların xətlənməsi, nizamlanması və təbii ki, işıqlandırılması nəzərdə tutulur. Bu gün ölkəmizdə elə şəhərlərarası əhəmiyyətli magistral yollar var ki, onlar heç işıqlandırılmayıb, qaranlıqdır və çala-çuxurdur. Qəzaların çox olmasının səbəbləri də bütün bu infrastrukturun standartlara cavab verməməsi və vaxtlıvaxtında təmir edilməməsidir".

Ekspertin fikrincə, qəzaların baş verməsinin əsas səbəblərindən biri sürücülərin qaydalara əməl etməməsi və məsuliyyətsizliyidir: "Bu gün bir çox sürücülər dönmə hərəkətini həyata keçirərkən dönmə işıqlarından istifadə etmirlər. Hava qaranlıq olanda işıqlandırmadan zəif istifadə edirlər. Bunlar təbii ki, qəzaların baş verməsinin əsas səbəbləridir. Birinci dərəcəli magistral yollar əslində təhlükəsiz sayılmalıdır. Lakin biz görürük ki, hətta bu yollarda da müəyyən çatışmazlıqlar olur.

Eyni zamanda Azərbaycanda yararsız və istismar müddətini başa vurmuş avtomobillərin sayı çoxdur.

Bu səbəbdən də köhnə avtomobillərlə törədilən qəzalar daha çox ağır xəsarətlər və ya ölümlə nəticələnir. Müasir avtomobillər daha təhlükəsiz hazırlanır və istehsalçılar qəza vaxtı insanların mümkün qədər az xəsarət almalarına önəm verirlər. Yeni ki, Azərbaycanda qəzaların qarşısını almaq üçün bir yox, hərtərəfli qaydada işlər görülməlidir. Bunun da əsas və ən yaxşı üsulu dövlət proqramının hissə-hissə həyata keçirməkdir. Xatırladım ki, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" hazırlanıb. Mükəmməl proqram olmasına baxmayaraq, müddəaların icrası bir çox dövlət qurumları tərəfindən ləngidilir. Proqramda qəzaların sayının azaldılması üçün konkret istiqamətlər qeyd olunub. Bir növ yol xəritəsi hazırlanıb".

**Şəymən Bayramova**

**Elanlar**

"BAHÇECİ BAKI QADIN SAĞLAMLIQ MƏRKƏZİ" MMC
VÖEN: 1303908471
"BAHÇECİ BAKI QADIN SAĞLAMLIQ MƏRKƏZİ" MMC (VÖEN:1303908471) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "BAHÇECİ BAKI QADIN SAĞLAMLIQ MƏRKƏZİ" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"BAKU RENDERİNG" MMC
VÖEN: 1304555431
"BAKU RENDERİNG" MMC (VÖEN:1304555431) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "BAKU RENDERİNG" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"D.S. DYNAMİC SOFT" MMC
VÖEN: 1303803011
"D.S. DYNAMİC SOFT" MMC (VÖEN:1303803011) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "D.S. DYNAMİC SOFT" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"DİZAYN+" MMC
VÖEN: 2000982041
"DİZAYN+"MMC (VÖEN:2000982041) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "DİZAYN+" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"EVENTS MANAGEMENT AZERBAİJAN" MMC
VÖEN: 1304737151
"EVENTS MANAGEMENT AZERBAİJAN" MMC (VÖEN:1304737151) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "EVENTS MANAGEMENT AZERBAİJAN" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"GİLAN AQRO SİTRUS" MMC
VÖEN: 2601589811
"GİLAN AQRO SİTRUS"MMC (VÖEN:2601589811) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "GİLAN AQRO SİTRUS" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"GİLAN AQRO" MMC
VÖEN: 1402468001
"GİLAN AQRO" MMC (VÖEN:1402468001) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "GİLAN AQRO" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"GİLAN İDMAN KLUBU" MMC
VÖEN: 1402368111
"GİLAN İDMAN KLUBU MMC (VÖEN:1402368111) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "GİLAN İDMAN KLUBU" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"GİLAN PİANO" MMC
VÖEN: 1401413541
"GİLAN PİANO" MMC (VÖEN:1401413541) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "GİLAN PİANO" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"GİLAN & PİD" MMC
VÖEN: 1400730251
"GİLAN & PİD" MMC (VÖEN:1400730251) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "GİLAN & PİD" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"GİLANPLASTİK" MMC
VÖEN: 1401788571
"GİLAN PLASTİK" MMC (VÖEN:1401788571) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "GİLAN PLASTİK" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"GİLAN SERVİS" MMC
VÖEN: 1402137961
"GİLAN SERVİS" MMC (VÖEN:1402137961) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "GİLAN SERVİS" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"GİLAN TURİZM" MMC
VÖEN: 1400629151
"GİLAN TURİZM" MMC (VÖEN:1400629151) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "GİLAN TURİZM" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"GİLAN-ÜLKER TRADİNG" MMC
VÖEN: 1402297271
"GİLAN-ÜLKER TRADİNG" MMC (VÖEN:1402297271) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "GİLAN-ÜLKER TRADİNG" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"GİLAN ZEYTUN" MMC
VÖEN: 1401684851
"GİLAN ZEYTUN" MMC (VÖEN:1401684851) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "GİLAN ZEYTUN" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

"İNŞAAT SERVİS+" MMC
VÖEN: 1500055311
"İNŞAAT SERVİS+" MMC (VÖEN:1500055311) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "İNŞAAT SERVİS+" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

# Sağalmır deyəndə insanların xoşuna gəlmir

## Allergiya qədər həkimləri peşman edən ikinci xəstəlik yoxdur



**4-cü sinif şagirdi Bakıdakı klinikalardan birində ölüb. Talassemiya xəstəsi olan Yevlax rayon Hacıselli kənd sakini Paşayeva Dərya Emin qızı müalicə aldığı klinikada dünyasını dəyişib. Əldə olunan ilkin nəlumata görə, müalicəsi normal keçən və hər hansı ölüm təhlükəsi olmayan azyaşlıya nümunə üçün antibiotik vurulub. Bu zaman azyaşlının halı kəskin pisləşib və dünyasını dəyişib.**

Qeyd edək ki, dünyada bir çox insanlar antibiotiklərin virus və soyuqdəymə xəstəliklərində effektiv olduğuna inanır. Halbuki, mütəxəssislər daim xəbərdarlıq edir ki, antibiotiklər mikrobları və bakteriyaları öldürə bilər, lakin onlar viruslara təsir göstərmir. Eyni zamanda antibiotiklərin uzun müddət qeyri-düzgün istifadə edilməsi düz bağırsaq xərçənginə, dizbakterioza və s. səbəb olur. Bu baxımdan antibiotikləri yalnız həkim təyinatı ilə bakteriyalara qarşı həssaslığı yoxlanılaraq qəbul etmək lazımdır.

Qeyd edək ki, Avropada antibiotik qəbuluna nəzarət edən xüsusi komissiyalar var. Həmin komissiyanın qərarı olmadan tibb işçisinin antibiotik təyin etmək hüququ yoxdur. Türkiyədə də artıq apteklərdə antibiotiklərin reseptsiz satılmasının qadağan olunması ilə bağlı qərar qəbul edilib.

**Pediatr Vaqif Qarayev "Şərq"ə açıqlamasında uşağın ölüm səbəbinin detallarına bələd olmadığı üçün konkret fikir bildirməyin subyektiv rəy olacağını deyib:** "Uşağın talassemiya daşıyıcısı, yoxsa xəstə olduğunu, xəstəlik tarixini, hansı səbəbdən ona antibiotik vurulduğunu bilmirəm. Bu uşaq körpə deyil, hər halda indiyə kimi allergik olub-olmadığını valideynləri və ya həkimləri bilməli idi. Ümumi yanaşanda talassemiyalı uşağa antibiotiki nahaq vurublar deyə bilərəm. Amma bəlkə də həqiqətən də o iynəyə ciddi ehtiyac varmış?! Məhz tibbi personalı qınamaq da doğru deyil. Antibiotik xəstəxanada vurulanda uşaqda əks reaksiya getmir, öldürmür deyə bir qayda da yoxdur. Belə hadisələr hər yerdə olur.

Bəli, antibiotiklərin ev şəraitində, həkim nəzarəti olmadan vurulması çox təhlükəli bir haldır. Belə hallarda ölüm riski çox olur. Amma etiraf edək ki, bəzən həkim nəzarətində, tibb bacısının vurduğu iynə də uşaqda şok effekt yarada bilir. Sadəcə, bu zaman müdaxilə etmək olur və əksər hallarda uşağın həyatını xilas etmək mümkün olur. Ev şəraitində isə xəstədə şok baş veribsə və yanında həkim yoxdursa, onun həyatını xilas etmək mümkünsüzdür. Xəstədə güclü şok baş verəndə, ona kömək edən yalnız həkim ola bilər. Başqa heç kim kömək edə bilməz. Şok əleyhinə xüsusi dərmanları da həkim tətbiq edə bilər".



**"Uşaq doğulandan kimyəvi qidalarla böyüyür, bir yandan havamız çirkli və tozludur. Əlbəttə ki, allergik uşaqların sayı artacaq. Havada tozun miqdarı normadan çoxdur, insanlarımız ehtiyatlı olsun deməklə iş bitmir"**

**Konkret hadisəyə gəldikdə isə pediatr deyib ki, uşağın talassemiya xəstəsi olduğunu bilən həkim və ya tibb bacısı çox ehtiyatlı davranmalı, iynə vurmazdan əvvəl mütləq anası ilə söhbət aparıb uşağın xəstəlikləri haqqında lazımi informasiyanı toplamalı idi:** "Allergiya elə bir şeydir ki, istənilən dərmana qarşı bədən əks reaksiya verə bilir. Adi novakainə qarşı allergiyası olan insanlar var. Amma allergik insanlar üçün ən təhlükəli dərman preparatı antibiotiklərdir.

Son illərə qədər bütün protokollarda altından qırmızı xətt çəkərək qeyd edilirdi ki, "prob"suz antibiotik vurmaq olmaz. "Prob" isə mütləq dəri içi qoyulmalıdır. Əgər müəyyən müddət ərzində dəridə səpki olsa, bu antibiotik həmin şəxsə yararsız və təhlükəli hesab olunurdu. Ancaq bu sınağı dərialtı etmək olmaz, qızara, şişkinlik yarada bilər. Amma hər tibb bacısı, həkim bu tələbə əməl etmir. Eləsi var sınaq iynəsini birbaşa dərialtına vurur. Antibiotikin kristalları isə iri olduğu üçün bədəndə həll olmur və dəridə qabarmalar yaradır.

Onu da deyim ki, indi bir çox həkimlər sınaq üçün vurulan iynələrin də yetərincə informativ olmadığını düşünür. Halbuki, orqanizm allergikdirsə, o sınaq mütləq müsbət nəticə verəcək, bəzən isə verməyə də bilər. Yəni hansısa uşaqda dəri qızarmırsa, bu, onun antibiotikə qarşı reaksiyası yoxdur anlamına gəlmir. Yəni tibdə bu cür yanılmalar olur və bu da təbiidir. Sınaq xəstəxana şəraitində peşəkar həkim tərəfindən qoyulmalıdır. Nəticəyə də yalnız həkim qərar verə bilər. Adətən həkimlər sınaq üçün dərmanın çox az bir qismini əzələ daxilinə yeridirlər, 20-25 dəqiqə gözləyirlər ki, allergiya verəcək, ya yox. Şəxsin allergiyası barədə məlumatları da məhz həkim toplayır. Buna tibdə allergiya anamnezi deyilir. Ağırlaşmaların qarşısını almaq məqsədilə xəstələrin həkim-mütəxəssis tərəfindən dəqiq və ətraflı anamnezin toplanması, müasir diaqnostik və müalicə üsullarından istifadə, kəskin respirator infeksiyalarının profilaktikasının aparılması bu xəstələrin sağlam həyat sürməsinin bünövrəsini təşkil edir".

**Mütəxəssis onu da deyib ki, bəzi valideynlər allergiya deyəndə ancaq bədəndəki səpmələri nəzərdə tutur. Amma bir az söhbət edəndə görürsən ki, uşaqda allergik rinit, bronxial astma və yaxud da hansısa dərmana qarşı allergiya var:** "Sadəcə, valideyn bunun fərqində deyil. Bəzən də ola bilər ki, yumurtaya qarşı allergiyası olan uşağın antibiotikə qarşı allergiyası olmasın. Valideyn gərək uşağı o qədər müşahidə etsin ki, nəyə allergiyası olub, nəyə olmadığını bilsin. Bəzən deyirlər ki, "həkim, uşağa antibiotik sirobu yazma, allergiyası var". Soruşursan, ay qızım, necə reaksiya verir? Deyir: "antibiotik içən kimi qaytarır". Dərmanı qaytarmaq allergik reaksiya deyil axı!?

Yeri gəlmişkən, dərman allergiyalarının müxtəlif forması var. Antibiotikdən yaranan şoka anafilaktik şok deyirlər, dərman anafilaktik şoku. Buna ildırımvari şok da deyirlər. Bir neçə dəqiqə ərzində xəstənin qan təzyiqi kəskin düşür və dünyasını dəyişir. Hətta xəstə klinikada, həkim, tibb bacısı nəzarətində belə olsa onun həyatını xilas etmək mümkün olmur. Bu hadisələr olur və tək bizdə deyil. Bütün dünya təcrübəsində bu cür ölüm hadisələrinə rast gəlmək mümkündür.

Elə insanlar da var ki, dərmanı görəndə bədəni səpir. Hətta tibdə "iynədən şok" ifadəsi var. Xəstənin hansısa dərmana allergiyası varsa, həkim o dərmanı şprisə yığanda artıq xəstə şoka düşür. Əgər həmin dəqiqə yanında həkim varsa, onun əlinin altında şok əleyhinə preparatlar varsa, o zaman xəstə bəlkə şokdan çıxa bilər. Əks halda, şokdan çıxmayacaq. Bu baxımdan hər yerdə tələb var ki, antibiotiklərin inyeksion forması professional şəkildə, həkim nəzarəti altında vurulmalıdır. Amma indi sirop şəklində antibiotiklər də var".

**Pediatrın sözlərinə görə, allergiya günümüzün ən böyük bəlalarından biridir. Növləri belə çoxalıb. Ekologiya, qida təhlükəsizliyi, geyindiyimiz geyimlər belə allergiyaların artması üçün zəmin yaradır:** "Pampersləin əksəriyyəti allergikdir. Uşaqların dərisi qızarır, səpir. Yəni deməyim odur ki, səhiyyə ilə bağlı yaşanan hər bədbəxt hadisənin günahkarı həkimlər, təbabət deyil. Qadınlarımızın istifadə etdiyi kosmetik vasitələrin 90 faizi allergikdir. Di gəl ki, bir problem olanda həkimləri borclu çıxarırıq ki, heç nə bilmirlər. Bir allergiyanı da müalicə edə bilmədilər! Allergiya qədər həkimləri peşman edən ikinci xəstəlik yoxdur. Bu xəstəlik sağalmır deyəndə də insanlarımızın xoşuna gəlmir. İzah edə bilmirik ki, bu xəstəlikdən qorunmaq üçün immun sistemi möhkəm olmalı və mütləq şəkildə nəzarətdir.

Uşaq doğulandan kimyəvi qidalarla böyüyür, bir yandan havamız çirkli və tozludur. Əlbəttə ki, allergik uşaqların sayı artacaq. Havada tozun miqdarı normadan çoxdur, insanlarımız ehtiyatlı olsun deməklə iş bitmir. Hər yerdə tikinti var. Şadlıq saraylarının tüstü bacalarından çıxan tüstü birbaşa tənəffüs sisteminin düşmənidir. Ehtiyatlı olub nə edək!? Hamımız skafandrda gəzək!? Aidiyyəti qurumlar vaxtında ekoloji problemləri həll etməli idi. Problem qapının ağzına dayanandan sonra insanlar nə etsin!? Bakı qədər çirkli şəhər yoxdur. Onsuz da dənizkənarı şəhərlərdə rütubət çox olur deyə allergik şəhərlər sayılır. Bu tək Bakıya aid deyil. Xəzərin sahilindəki bütün şəhərlərdə allergiya və revmatizm xəstələri çox olur".

**Şəymən Bayramova**

# Quantanamoda cəmi 36 məhbus qalıb

## İlə 15 milyon dollar xərclənir

*(Əvvəli səh: 8-də)*

**Corc Buş və Barak Obama administrasiyaları tərəfindən yüzlərlə insan repatriasiya edildikdən və ya üçüncü ölkələrə yerləşdirildikdən sonra bu gün müəssisədə yalnız 36 məhbus qalıb. Ən son məhbus 2008-ci ildə gəlib.**



*Baydenin həbsxananı bağlamaq istəyi ciddi müzakirələrə səbəb olub*

Demokrat Bayden administrasiyasının həbsxananı bağlamaq istəyini tənqid edən respublikaçılar və digərləri, Quantanamonun bağlanmasının "terrorizmə qarşı həssas davranmaq" damğasına məruz qalma ehtimalı yaratdığını iddia edirlər. Ağ Ev ABŞ-ın keçmiş prezidenti Obamanın planlarını alt-üst edən bədnam həbsxananı bağlamaq çağırışlarından yayınmağa çalışır. Konqres Obama administrasiyasının 2010-cu ildə həbsxananı bağlamaq səylərinə cavab olaraq Quantanamo məhbuslarının ABŞ-a köçürülməsini qadağan edib.

Pensilvaniya Universitetində Etika və Qanunun Aliliyi Mərkəzindən Harvey Rishikof isə "Administrasiya terrorizmə qarşı yumşaq görünmək istəmir və siyasi kompromis gözləyir" deyib.

Digər tərəfdən ABŞ Müdafiə Nazirliyi (Pentaqon) Quantanamoda 4 milyon dollara üçüncü məhkəmə zalını tikərək Donald Tramp dövründəki layihəsini davam etdirir. Hərbi komissiyanın sözçüsü izah edib ki, Quantanamonun məhkəmə obyektlərinin, o cümlədən yeni məhkəmə zalının genişləndirilməsi hərbi hakimlərə "eyni vaxtda çox müdafiə, uzunmüddətli məhkəmə prosesləri" keçirməyə imkan verəcək.

Bununla belə, 2001-ci il 11 sentyabr hücumlarından 21 il sonra və ABŞ-ın Əfqanıstanı tərk etməsindən bir il sonra tənqidçilər administrasiyanı Quantanamo həbsxanasının bağlanmasında daha sürətli hərəkət etməyə məcbur edirlər. Senatın Ədliyyə Komitəsinin sədri Dik deyib: "İnsanları illərlə günahlandırmaq və ya mühakimə etmək bizim bir millət olaraq sahib olduğumuz dəyərlərlə uzlaşmır. Bu vəziyyət 11 sentyabr qurbanlarını və onların ailələrini ədalət axtarmaqdan məhrum edir". Digər tərəfdən, Penn Araşdırma Mərkəzi Quantanamonun bağlanması üçün Bayden administrasiyasına yol xəritəsi təqdim edən və milli təhlükəsizliyi qorumaq üçün alternativ yanaşmalar təklif edən 197 səhifəlik hesabat dərc edib. Keçmiş Quantanamo hərbi prokurorları və müdafiə vəkilləri tərəfindən hazırlanan hesabatda düşmən məhbuslarına konstitusiya hüquqlarını vermədən onları mühakimə etmək üçün yaradılan hərbi komissiyaların ləğv edilməsi və davam edən 10 komissiya işinin ömürlük etiraf sövdələşmələri yolu ilə həll edilməsi tövsiyə olunur.

Hesabat məhbusların repatriasiyası və ya məskunlaşdırılmasını və Quantanamoda cəza çəkən məhbusların ABŞ ərazisindəki həbsxanalara köçürülməsinə dair Konqresin məhdudiyyətlərini aradan qaldırmağı müdafiə edir. Penn araşdırmasına görə, Kubadakı həbsxananın fəaliyyəti ildə 540 milyon dollara başa gəlir. Bu xərclərin 100 milyon dollarını hərbi komissiyaların yaradılması təşkil edir.

*Qeyd edək ki, Buş administrasiyası 2009-cu ilə qədər Quantanamodan 500-dən çox məhbusu köçürüb; Obama administrasiyası isə daha 200 nəfər köçürüb. Obama administrasiyası zamanı müzakirə edilən yalnız bir transfer Tramp administrasiyası dövründə baş tutub. Bayden vəzifəyə gələndə isə Quantanamoda cəmi 40 məhbus qalıb.*

*Bayden uzun müddətdir ki, 2020-ci il prezidentlik kampaniyası zamanı da daxil olmaqla Quantanamonun bağlanmasına dair çağırışlar edib. Bununla belə, Bayden sələfi Trampın Obamanın həbsxananı bağlamaq üçün 2009-cu ildə verdiyi direktivi yerinə yetirmək əmrini icra etdi.*

**Şəymən Bayramova**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2694



## Futbol toplarına bənzər mobil evlər

Bu evlər sakinlərə zəlzələ və sunamidən sağ çıxmağa imkan verəcək

**Futbol toplarına bənzər mobil evlər kiçik olmaqla kosmik gəmilərə oxşayır.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, sahəsi təqribən 50 kvadratmetr olan bu antiseysmik evlər sifarişçinin arzusu ilə istənilən ərazidə, eləcə də okean sahillərində quraşdırıla bilər.

Memarların fikrincə, bu evlər sakinlərə zəlzələ və sunamidən sağ çıxmağa imkan verəcək, çünki təhlükəsiz olmaqla yanaşı, su üzərində qalmağa qadirdir.

## Meqan Britaniya kralı ilə təkbətək görüşmək istəyir



**Meqan Markl şahzadə Harri ilə İngiltərəni tərk etməzdən əvvəl yeni kral III Çarlzla şəxsən görüşərək münasibətlərini aydınlaşdırmaq istəyir.**

Oxu.az xəbər verir ki, iddiaya görə, 41 yaşlı Sasseks hersoginyası əlahəzrət ilə əri olmadan təklikdə görüşmək istəyir.

Bildirilir ki, Markl II Elizabetin ölümündən sonra övladlarının titullarını III Çarlzla müzakirə etmək niyyətindədir. Lakin Sasseks hersoqları kral ailəsi üzvlüyündən rəsmi olaraq istefa verdikləri üçün Arçi və Lilibet hələ ki, müvafiq titullardan istifadə edə bilmirlər.






# Fədakar qardaş...

O, özünə də uyğun gələn bacısının orqanından imtina edib, 5 xəstəyə həyat verdi

**Trabzonda beyin qanaması nəticəsində dünyasını dəyişən 52 yaşlı qadının orqanları 5 xəstəyə həyat verib. Dializ xəstəsi olan qardaş bacısının böyrəyinə möhtac olsa da, o bundan imtina edərək 16 yaşlı xəstəyə ömür bağışlayıb.**

Trabzonda beyin qanaması nəticəsində müalicə aldığı xəstəxanada dünyasını dəyişən Feride Aytaşın (52) orqanları 5 xəstəyə ümid olub.

Yüksək təzyiq səbəbiylə beyin qanaması keçirən Feride Aytaş ötən gün müalicə aldığı Kanuni Təhsil və Araşdırma xəstəxanasında dünyasını dəyişib.

Xəstəxananın orqan və toxuma transplantasiyası üzrə koordinatorları onun bacısı Halise və böyük qardaşı Hakkı Aytaş ilə əlaqə saxlayıb, onlar qardaşlarının orqanlarının bağışlanmasını təsdiqləyiblər.

Böyrək çatışmazlığı səbəbindən 2 ildir dializdə olan və orqan nəqli siyahısında olan Hakkı Aytaş, "Başqaları təcili orqan gözlədiyi halda mən bacımın orqanını ala bilmərəm" deyərək orqan nəqli hüququndan imtina edib.

Feride Aytaşın orqanları əməliyyatla çıxarılaraq transplantasiya gözləyən xəstələr üçün Ərzurum, Samsuna və Adanaya göndərilib. Samsunda Aytaşın buynuz qişası, Ərzurumda böyrəkləri, Adanada qaraciyəri 5 fərqli xəstəyə köçürülüb.

Təhvil verildikdən sonra Aytaşın cənazəsi Taşhan rayonunda torpağa tapşırılıb.

Yaşadığı Zonquldakda müalicə aldığını deyən Hakkı Aytaş, **"Mən də transplantasiya gözləyən xəstəyəm. Bacımın böyrəyi mənə də uyğun idi, lakin bilə-bilə bundan imtina etdim.** Hələlik özümü idarə edirəm" deyə vurğulayıb.

Ondan daha ağır xəstələrin olduğunu bildirən Aytaş, "Gənc analar, atalar, ümidsiz uşaqları görəndə o orqanı ala bilmədim. İllərdir kimsədən orqan alacağım günü gözləyirdim, amma bacımın orqanını daşımağa ürəyim icazə verməzdi".



**Bacısının orqanları ilə təkrar həyata qayıdanlara xoş arzularını çatdıran Aytaş bunları deyib:** "Orqan donorluğu yetərincə olmadığı üçün yüzlərlə xəstəmizi itiririk. Bacımın qaraciyəri Adanada 16 yaşlı xəstəyə ümid verdi və uğurlu oldu. Ümid edirəm ki, bacımın digər orqanlarını alanların hamısı çox sağlam ömür sürəcək və ara da bir bacıma da rəhmət oxuyacaqlar.

Turan

## Bella İranda öldürülən Məhsanı paylaşdı



**Dünyaca məşhur model Bella Hadid İranda əxlaq polisi tərəfindən döyülərək öldürülən 22 yaşlı Məhsa Əmini ilə bağlı paylaşım edib.**

**Bella paylaşımda "Məkanın cənnət olsun. Buna layiq deyildin... Ailəsinə və sevdiklərinə səbr diləyirəm", - deyə, qeyd edib.**

**Xatırladaq ki, Əmininin ölümü səbəbilə İranda kütləvi aksiyalar başlayıb. Qadınlar baş örtüklərini yandıraraq etirazlarını bildiriblər.**

## Acun avtomobillə onu vuran şəxsi əfv etdi



**Bir neçə gün öncə motosiklet qəzası keçirən "Tv8" kanalının sahibi Acun Ilıcalı xəstəxanadan evə buraxılıb.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, iş adamının qoluna platin qoyulub. Qarşı tərəfdən gələn avtomobillə toqquşan Ilıcalı sürücüdən şikayətçi olmayıb.**

## Mark Zukerberqin üçüncü qızı olacaq



**"Meta" şirkətinin rəhbəri Mark Zukerberqin üçüncü övladı olacaq.**

**Bu barədə Mark özü sosial şəbəkədə yazıb. O, "Gələn il Maks və Avqustun kiçik bacısı olacağını bildirməyə şadıq" deyə, o, bildirib.**

***Qeyd edək ki, Zukerberq və Pristilla Çan 2003-cü ildə tanış olub, 9 il sonra ailə qurub.***

## Təhlükəli dırmanış

Rusiyalı tanınmış aparıcı xəstəxanaya yerləşdirilib



**Rusiyalı tanınmış model və aparıcı Viktoriya Bonya Himalay dağlarında Manaslu zirvəsinə dırmanışdan sonra xəstəxanaya yerləşdirilib.**

**Oxu.az xəbər verir ki, bu barədə bloqer özünün "Instagram" hesabında məlumat verib. "Ağciyərlərin rentgeni üçün Katmanduya yollandım. Kəskin öskürəyə görə məni müayinə üçün xəstəxanaya göndərdilər...", - deyə bildirən model Nepalın paytaxtındakı xəstəxanadan şəkil paylaşıb.**




# Quantanamoda cəmi 36 məhbus qalıb

İlə 15 milyon dollar xərclənir

**ABŞ Prezidenti Cozef Bayden Kubadakı Quantanamo həbsxanasını bağlamağa hazırlaşır. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, Baydenin həbsxananı bağlamaq istəməsinin əsas səbəbi maliyyə xərcləridir.**

Quantanamoda saxlanılan məhbuslara ildə 15 milyon dollar pul xərclənir. Bununla yanaşı cinayətkarların və terrorçuların yüksək təhlükəsizliklə saxlanıldığı həbsxananın sübut olunmamış məhbuslara işgəncə verilməsi ilə ad çıxarması da bağlanma səbəblərindən biri hesab olunur.



*Baydenin həbsxananı bağlamaq istəyi ciddi müzakirələrə səbəb olub*

Qeyd edək ki, Quantanamo mənfi nüfuzunu 11 sentyabr araşdırmasında CİA agentliklərinin müttəhimlər ittiham olunmadan istifadə etdikləri qəddar üsullar səbəbindən qazanıb.

Bayden, 11 sentyabr hadisəsinin təşkilatçısı olduğu iddia edilən Xalid Şeyx Məhəmməd və 4 müttəhimin davam edən təhqiqatına müdaxilə etməyəcəyinə işarə edərək, ilk dəfə yüksək səviyyəli diplomat olan Tina Kaidanovu məhbusların köçürülməsinə nəzarət etmək üçün təyin edib.

Həmçinin Prezident Bayden siyasi mübahisələrdən qaçmaq üçün vəzifəsinin ilk ilində məsələyə daha ehtiyatlı yanaşıb. Bu gün isə həbsxananı bağlamaq barədə kampaniya vədini yerinə yetirməyə çox yaxınlaşıb.

Kubadakı ABŞ Hərbi Dəniz Qüvvələrinin bazasındakı həbsxana xaricdə əsir götürülmüş əcnəbi terrorçuları yerləşdirmək məqsədi ilə 2002-ci ilin yanvarında yaradılıb. O vaxtdan bəri Quantanamoda 800-ə yaxın insan həbs edilib.

*(Davamı səh: 7-də)*

Şəymən

## Turist batmış gəmiyə sualtı tur zamanı öldü



**Albaniyada 29 yaşlı turist tur zamanı ölüb.**

Oxu.az xəbər verir ki, hadisə Saranda şəhərində baş verib. Böyük Britaniyadan olan turist sualtı tura çıxmaq qərarına gəlib və yerli dalğıc mərkəzinə üz tutub. Turist batmış gəmiyə ekstremal tura yazılıb. Tur zamanı turist qız yeddi-səkkiz metr dərinliyə dalıb, sonra suyun üstünə çıxıb və yenidən dibə gedib. Qrupu müşayiət edən təlimatçı ilkin tibbi yardım göstərmək istəsə də, qız dünyasını dəyişib. Hadisə ilə bağlı 45 yaşlı dayvinq təlimatçısı həbs edilib.Polisin məlumatına görə, bələdçi dayvinq zamanı sağlamlıq və təhlükəsizlik qaydalarına əməl etməyib. Dayvinq mərkəzindən isə bildirilib ki, qızın səhhətində problemlər olub və o, bu barədə məlumat verməyib.

## Qədim Misir kraliçasının sərdabəsi tapılıb

Sərdabədə 10 yaşlı bir uşağın da mumiyası var, güman edilir ki, bu, Tutanhamonun qardaşıdır



**Arxeoloqların uzun illər qədim Misir kraliçası Nefertitinin sərdabəsinin aşkar edilməsi istiqamətində tədqiqatları bir nəticə verməmişdi. Bu günlərdə məşhur misirşünas Zahi Havas bəyan edib ki, bu sərdabə tapılıb və kraliçanın mumiyasının müəyyən edilməsi üçün DNT analizləri aparılır.**

Azərtac xəbər verir ki, misirli alim bu ilin dekabrında Luksor ətrafında aşkar edilmiş qədim əşyaların Kral Tuta aid olduğunu bildirib. O əlavə edib ki, həmin ərazidə çoxsaylı mumiyalar da aşkar edilib. "Bizdə artıq fironların 18-ci sülaləsinin mumiyalarının DNT-si var. Bu nümunələr II Axenatendən III Amenhotepə qədər dövrə aiddir. Bu ərazidə əfsanəvi firon Tutanhamonun anası Nefertitinin mumiyasının da olduğuna əminəm və oktyabrda DNT-nin nəticələrinə əsasən bunu rəsmən elan edəcəyik", - deyə Havas bildirib. Misirli alim qeyd edib ki, sərdabədə 10 yaşlı bir uşağın da mumiyası var. Güman edilir ki, bu, Tutanhamonun qardaşıdır. Nefertiti eramızdan əvvəl 1370-1330-cu illər arasında yaşayıb. Gözəllik rəmzi olan kraliça firon Tutanhamonun ögey anası və Qədim Misirin firavanlıq dövründə hökmranlıq etmiş firon Axenatonun arvadı idi.